Xalqın qəzeti!
# Xalq qəzeti
№ 160 (30564) 31 iyul 2024-cü il, çərşənbə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Bakı yaşıllıqlar, parklar, gözəlliklər məkanına çevrilir

### Prezident İlham Əliyev "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Gənclik" metrosu yanında yaradılan yeni parkda işlərin gedişi ilə tanış olub.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi.

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Belə istirahət məkanlarından daha biri Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda salınan yeni parkdır.

"Antena" parkı kimi tanınan bu ərazi əvvəllər baxımsız vəziyyətdə olub. İstirahət parkının yenidən qurulması və bərpası ilə əlaqədar bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Söküntü işlərindən sonra parkın ərazisi daha da genişləndirilib və 19 hektara çatdırılıb.

Qeyd olundu ki, parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və həmin binada bərpa işləri aparılacaq.

*(ardı 2-ci səhifədə)*

## Qayıdışın növbəti ünvanı Kərkicahandır!



**Ermənistan ötən əsrin 80-ci illərinin sonunda Qərbi Azərbaycandakı yüzminlərlə soydaşımızın öz tarixi torpaqlarından zorla qovulması prosesini yekunlaşdırdıqdan sonra torpaqlarımızı qəsbinə başladı. İşğalçıya qanlı sovet imperiyası rəhbərləri tərəfindən açıq dəstək göstərilməsi azğınlaşmış düşmənin iştahasını daha da artırır, onları illərlə gizli hazırladıqları planlarının icrasına şirnikləndirirdi. Hədəf Qarabağ və Şərqi Zəngəzurun barlı-bərəkətli ərazilərini ələ keçirmək, bu torpaqların əbədi-əzəli sakinləri olan azərbaycanlıları yurd-yuvalarından didərgin salmaq idi. Üstəlik, müstəqilliyimizin ilk illərində Azərbaycana rəhbərlik edən şəxslərin səriştəsizliyi, ölkədə hökm sürən xaos, özbaşınalıq, hakimiyyətsizlik Qarabağı sahibsiz, dinc, əliyalın azərbaycanlıları isə gündən-günə azğınlaşan erməni faşistləri qarşısında Allahın ümidinə qoymuşdu.**

Yaranmış fürsətdən istifadə edən ermənilərin qanlı cinayətlərinin qurbanına çevrilmiş ilk yaşayış məntəqələrindən biri də Xankəndi şəhərinə bitişik olan Kərkicahan qəsəbəsi oldu. Düşmənə mərdliklə müqavimət göstərilməsinə baxmayaraq bu yaşayış məntəqəsinin müdafiəsini uzun müddət davam etdirmək mümkün olmadı. Yerli əhalidən ibarət özünümüdafiə dəstəsi, polis və yenicə yaranmış Azərbaycan Ordusunun zəif silahlanmış bir qrup əsgəri quduzlaşmış erməni cəlladlarının hərbi texnika və ağır silahlarla Xankəndi istiqamətindən qəsəbəyə doğru şiddətli hücumları nəticəsində geri çəkilməyə məcbur oldu, beləliklə, Kərkicahan 1991-ci il dekabrın 28-də işğal edildi...

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də Qarabağda keçirilən lokal antiterror tədbirləri zamanı qazandığı tarixi qələbələr dünyanın harasında yaşamasından asılı olmayaraq on milyonlarla azərbaycanlıya olduğu kimi, respublikamızın 35 şəhər və rayonunun ərazisində müvəqqəti məskunlaşmış 2500-dən artıq kərkicahanlıya da sonsuz sevinc və qürur bəxş etdi, onların doğma yurd həsrətinə son qoydu. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri, erməni barbarları tərəfindən tamamilə dağıdılmış yaşayış məntəqələrimizin daha gözəl və müasir memarlıq layihələri əsasında yenidən tikilməsi, Böyük Qayıdışa start verilməsi dövlətimizin bu sahəyə prioritet istiqamət kimi yanaşmasının təzahürüdür.

*(ardı 6-cı səhifədə)*

## Azərbaycan investisiya reytinqində də öndədir



Səhifə ⇨ 7

## Qlobal ekoloji mübarizənin "yaşıl" tikinti hədəfləri



Səhifə ⇨ 8

## Qaranlıq iztirabların işıqlı sonu



Səhifə ⇨ 10

## Hayların "yalquzaq" missiyası

### *ABŞ Senatı revanşistləri "yemləməklə" nəyə nail olmağa çalışır?*

**Düşünürük ki, gündəmin əsas sualı budur: Fransadan, Hindistandan, ABŞ-dən hərbi-texniki və maliyyə dəstəyi alan Ermənistan, doğrudanmı, revanşist xəyallara qapılaraq ölkəmizə qarşı yeni müharibəyə hazırlaşır? Bu sorğunun arxasından digər suallar da boylanır. Misal üçün, Azərbaycanın COP29-a ciddi hazırlaşdığı ərəfədə İrəvanın şərti sərhəddə təxribata əl atması təsadüfdürmü? Yaxud, sülh prosesinə hərtərəfli dəstək və töhfə verməyə hazır olduğunu bəyan edən ABŞ nə məqsədlə Ermənistana hərbi xarakterli yardımlarını davam etdirir? Rəsmi Bakının əsəblərini tarıma çəkən bu kimi cavabsız sualların və İrəvanın şübhəli hərəkətlərinin heç bir halda bölgədə sülhə və əməkdaşlığa xidmət etməyəcəyi birmənalıdır.**



Ermənistanın Hindistanla imzaladığı 600 milyon ABŞ dolları həcmində razılaşmaya əsasən, artıq yeni silah-sursat, eləcə də Fransadan zirehli texnika və HHQ üçün hücum silahları aldığı barədə yazmışıq. Üstəlik, Avropa İttifaqının Sülh Fondunun Ermənistana hərbi xarakterli 10 milyon avro həcmində yardımından sonra ABŞ Senatının İrəvana 65 milyon dollar ayırması daha ciddi suallar doğurur.

*(ardı 3-cü səhifədə)*

## "Qarabağ"ın böyük hesablı qələbəsi

Səhifə ⇨ 11

## Nə yeyək, nə içək ki, xəstələnməyək?

**Düzgün qidalanma sağlamlığın ən əsas şərtlərindən biridir. Təsadüfi deyil ki, xəstəliklərin böyük əksəriyyəti düzgün qidalanmamaq nəticəsində orqanizmdə maddələr mübadiləsinin pozulması ilə əlaqədar olur. Sağlam qidalanma sağlam gələcəyin təməlidir. Bu baxımdan gələcək nəslin indidən düzgün formalaşması üçün onların necə qidalanması məsələsi daha çox gündəmə gəlir. Düzgün qidalanma həyat keyfiyyətini: sağlamlığı, əhval-ruhiyyəni, əmək qabiliyyətini, maddələr mübadiləsini, bu və ya digər orqan və sistemlərin dolğun fəaliyyətini təmin edir, bir sıra qeyri-infeksion xəstəliklərin (QİX) və halların qarşısını almağa imkan yaradır.**



Bu fikirləri XQ-yə müsahibəsində Azərbaycan Tibb Universitetinin müəllimi, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü Aida Bəndəliyeva qidalanma ilə bağlı "Nə yeyək ki, sağlam qalaq, gec qocalaq?"– sualımıza cavab olaraq bildirdi. Eyni zamanda, söhbətinə davam etdi:

**(ardı 11-ci səhifədə)**

# Bakı yaşıllıqlar, parklar, gözəlliklər məkanına çevrilir



(əvvəli 1-ci səhifədə)

Yenidən qurulan parkda sakinlərin mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılacaq. Belə ki, burada müasir tələblərə cavab verən iki restoran inşa olunur. Həmçinin burada 2 fəvvarə də quraşdırılacaq. Bu da istirahət məkanına əlavə gözəllik verəcək.

Müasir istirahət kompleksinin ərazisinin 13,8 hektarında yaşıllıq sahələri salınacaq. Burada işıqlandırma sistemi yeni layihə əsasında ən müasir standartlara uyğun şəkildə qurulacaq. Parkda piyada və velosiped yolları çəkiləcək, uşaq-əyləncə və idman meydançaları yaradılacaq.

Bildirildi ki, yenidən qurulan parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirəcək tunelin də inşasına başlanılıb.

Dövlətimizin başçısına, eyni zamanda, Yaşıllaşdırma Təsərrüfatı Birliyinin Binə qəsəbəsi ərazisində yeni salınmış istixanası barədə də məlumat verildi. Qeyd olundu ki,



istixanada 1 milyonadək gül yetişdiriləcək. Bu da ölkəmizə gül idxalının həcmini əhəmiyyətli dərəcədə azaltmağa imkan verəcək.

Yenidən qurulan park, həmçinin Azərbaycan dövlətinin ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, o cümlədən "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində gördüyü işlərə daha bir töhfə olacaq.

***AZƏRTAC***

---

# Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

**Əlahəzrət!**

**Əziz Qardaşım!**

Mərakeş Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz xoş ənənələrə əsaslanan Azərbaycan-Mərakeş dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, xalqlarımızın rifahı naminə dövlətlərarası əlaqələrimizin daha da möhkəmləndirilməsi, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş xalqınıza daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 iyul 2024-cü il**

---

# Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 12 aprel tarixli 3843 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Sumqayıt şəhərinin inzibati ərazisində yerləşən və bu Sərəncama əlavə olunan Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tərtib etdiyi yerquruluşu planlarında göstərilmiş, dövlət mülkiyyətinə aid 29,63 hektar (Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azərikimya" İstehsalat Birliyinin istifadəsində olan 26,86 hektar və həmin torpaq sahəsinə bitişik 2,77 hektar) torpaq sahəsinin icarəyə vermək hüququ ilə həmin Nazirliyin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin istifadəsinə verilməsi ilə bağlı iki ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və Sumqayıt Şəhər İcra Hakimiyyəti bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 iyul 2024-cü il**

---

# Baş nazir Əli Əsədov Tehranda



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov İran İslam Respublikası Prezidentinin andiçmə mərasimində iştirak etmək üçün Tehrana səfər edib.**



* * *

**Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Baş nazir Əli Əsədov iyulun 30-da İran İslam Respublikasının yeni seçilmiş Prezidenti Məsud Pezeşkianın andiçmə mərasimində iştirak edib.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.

* * *

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 30-da Tehranda İran İslam Respublikasının yeni təyin olunmuş Birinci vitse-prezidenti Məhəmməd Reza Areflə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Əli Əsədov Məhəmməd Reza Arefi İranın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunması münasibətilə təbrik edib.

Görüşdə iki dövlət arasında tarixi köklərə əsaslanan münasibətlərin hazırkı dönəmdə ticarət-iqtisadi, nəqliyyat, enerji, humanitar və bir çox digər sahələrdə inkişafdan məmnunluq ifadə olunub.

Azərbaycan–İran əməkdaşlığının müxtəlif istiqamətlərdə genişləndirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

***XQ***



---

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində, 12-ci maddəsinin 5-ci hissəsində, 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində və 13-1-ci maddəsinin 5-ci hissəsində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 12-ci və 13-1-ci maddələrinin 5-ci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə müvafiq ərazidə tikintiyə icazə verən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulurlar.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. normativ hüquqi aktların "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvəqqəti tikililər barədə məlumatlandırma mexanizmi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. həmin Məcəllənin 13-1-ci maddəsinin 1-ci hissəsinə uyğun olaraq, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə tikinti obyektlərinin inşasına və quraşdırılmasına tikintiyə icazə icraatı çərçivəsində fəaliyyət sferasına (maraqlarına) toxunulan və rəy alınması zəruri olan qurumların siyahısı, onlar tərəfindən verilmiş rəylərin əhatə dairəsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.4. həmin Məcəllənin 13-1-ci maddəsinin 5-ci hissəsinə uyğun olaraq, tikinti əmsalına qismən cəlb edilmiş torpaq sahəsinin başqa şəxsin mülkiyyətinə və ya istifadəsinə keçən əsaslı tikili olmayan hissəsində tikililərin inşası üçün yol verilən həddin hesablanması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 13-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvəqqəti tikililər barədə məlumatların Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edilməsini təmin etsinlər.

**4.** "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci, 2.1-1-ci və 2.1-2-ci bəndlər müvafiq olaraq 2.1-2-ci, 2.1-ci və 2.1-3-cü bəndlər hesab olunsun;

4.2. 2.1-ci bənddə "həmin Məcəllənin" sözləri "Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində, 12-ci maddəsinin 5-ci hissəsində, 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində, 13-1-ci maddəsinin 5-ci hissəsində," sözləri ilə əvəz edilsin;

4.3. 2.1-2-ci bənddə "Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin" sözləri "həmin Məcəllənin" sözləri ilə əvəz olunsun, həmin bəndə "47-ci" sözlərindən əvvəl "45-ci maddəsinin 4-cü bəndinin ikinci cümləsində," sözləri əlavə edilsin və həmin bənddən "9-cu maddəsinin 3-cü hissəsində, 12-ci maddəsinin 5-ci hissəsində," sözləri çıxarılsın;

4.4. 2.1-3-cü bəndə "Məcəllənin" sözündən sonra "12-ci maddəsinin 5-ci hissəsində, 13-1-ci maddəsinin 5-ci hissəsində," sözləri əlavə edilsin;

4.5. aşağıdakı məzmunda 2.1-1-ci və 2.1-4-cü bəndlər əlavə edilsin:

"2.1-1. həmin Məcəllənin 9-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

"2.1-4. həmin Məcəllənin 13-cü maddəsinin 2-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə müvafiq ərazidə tikintiyə icazə verən Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulurlar;";

4.6. 2.2-1-ci bənd ləğv edilsin.

**5.** "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 158 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 iyun tarixli 99 nömrəli Fərmanı) 1-ci hissəsinin üçüncü abzasından "dincə qoyulmuş torpaqlar," sözləri çıxarılsın.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 mart tarixli 818 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 439 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib olunması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3-cü bənddən, 2.3.2-ci yarımbənddən (hər iki halda) və 3.3-cü bənddən ismin müvafiq hallarında "(uqodiyalar)" sözü çıxarılsın;

6.2. 6.1.1-ci yarımbənddən "(uqodiyalarına)" və "dincə qoyulmuş torpaqlara," sözləri çıxarılsın.

**7.** "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 27 aprel tarixli 1323 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 328 (Cild I) 1.2-ci bəndində ", çoxillik əkmələrin altında olan və dincə qoyulmuş kənd təsərrüfatı yerlərinin (uqodiyaların)" sözləri "və çoxillik əkmələrin altında olan kənd təsərrüfatı yerlərinin" sözləri ilə əvəz edilsin.

**8.** Bu Fərmanın 1-ci və 3–7-ci hissələri 2025-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 iyul 2024-cü il**

# Hayların “yalquzaq” missiyası



(əvvəli 1-ci səhifədə)

Bu həftə ABŞ Senatının Təxsisatlar Komitəsi bir sıra tədbirləri, o cümlədən, Ermənistana 65 milyon dollar yardım nəzərdə tutan 2025-ci maliyyə ili üçün Xarici Əməliyyatlar haqqında qanun layihəsini təsdiqləyib. Bu xəbəri səxavətlə paylaşan Erməni Assambleyası bildirir ki, pullar, guya, islahatlar və Avroatlantik inteqrasiya istiqamətində istifadə olunacaq. Qanun layihəsində o da qeyd olunur ki, komitə Ermənistan və Azərbaycan arasında davamlı sülh sazişinin əldə edilməsi səylərini dəstəkləyir Dövlət katibinə və USAID-in icraçı direktoruna ayrılan vəsaitlərin bölüşdürülməsi zamanı danışıqların vacibliyini nəzərə almağı tapşırır.

Erməni Assambleyasının Konqreslə əlaqələr üzrə nümayəndəsi Mariam Xaloyan isə yardımın məqsədini bu cür izah edib: “Ermənistan 2020-ci il müharibəsindən və Azərbaycanın “soyqırımı” siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düşmüş 100 mindən çox ermənin axınından sonra böyük problemlərlə üzləşdiyi  üçün ona, ən azı, 65 milyon dollar yardımın ayrılması vacibdir”. Yəni, Xaloyan Konqresin yardımını açıq-aşkar anti-Azərbaycan çalarları ilə boyamağa tələsib.

Vaşinqton birbaşa bu cür şərhlərə yol verməsə də, bunun mahiyyətindən nə qədər uzaq görünür? Maraqlı sualdır. Yada salaq ki, bu ilin aprelində Dövlət katibi Antoni Blinken Brüsseldə ABŞ və Aİ-nin Ermənistana hərtərəfli yardım göstərməyi öhdələrinə götürdükləri görüşün iştirakçısı olub. “Üçlər”in birgə bəyanatında üstüörtülü şəkildə Ermənistana yardım proqramında hərbi komponentin olması göstərilirdi. Həmin bəyanatda 2023-cü ilin sentyabrında Azərbaycandan Ermənistana könüllü köçənlər “məcburi miqrant” adlandırılıb.

*

Azərbaycanın 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi uğurlu antiterror tədbirindən sonra Qərb, xüsusilə də, ABŞ tərəfindən Ermənistana birtərəfli qaydada dəstək intensivləşməyə başladı. Digər məsələlərlə yanaşı, buraya ABŞ diplomatlarının, məsələn, Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O’Brayn və Dövlət Departamentinin Qafqaz məsələləri üzrə baş müşaviri Lui Bononun İrəvana ardıcıl səfərlərini daxil etmək olar. Artıq hamıya məlumdur ki, amerikalıların son aylardakı siyasi fəallığı Ermənistan qanunvericiliyindən Azərbaycana qarşı ərazi iddiaları ehtiva edən müddəaların çıxarılması şərtini yumşaltmaq üçün Bakıya təzyiq göstərmək istəyi ilə bağlıdır.

Vaşinqtonun məqsədi qonşularının ərazi bütövlüyünü təhdid etməmək barədə heç bir öhdəlik götürmədən Ermənistanın regional layihələrdə iştirakına nail olmaqdır. Azərbaycan, təbii ki, bununla razılaşa bilməz. Son vaxtlar ABŞ rəsmilərinin bəyanatlarında getdikcə ultimativ tonun güclənməsinin səbəbi budur. İş o yerə çatıb ki, Dövlət katibinin köməkçisi O’Brayn “Azadlıq” radiosuna müsahibəsində ermənilərin Azərbaycandan Ermənistana köçürülməsi şəraiti ilə bağlı, bir növ, müstəqil araşdırma aparılmasını məqbul sayıb. Həmin açıqlama ilə eyni vaxtda ABŞ-nin “insan haqları” üzrə təşkilatı “Freedom House”un hesabatı dərc olundu. Həmin hesabatda Azərbaycan Qarabağdakı erməni əhalisinə qarşı “etnik təmizləmə”də ittiham olunur. Hələ bundan əvvəl ABŞ Dövlət Departamenti dünyada dini azadlıqlarla bağlı xüsusi hesabatında Azərbaycanı “nəzarət altında olan ölkələr” siyahısına daxil etmişdi. Bu yaxınlarda İrəvanda işgüzar səfərdə olan ABŞ Dövlət katibinin müavini Uzra Zeya Ermənistan KİV-ə müsahibəsində 2023-cü ilin sentyabrında ermənilərin Azərbaycandan Ermənistana könüllü köçürülməsi ilə bağlı birmənalı olmayan qiymətləndirməyə yol verib. Yeri gəlmişkən, bundan sonra Ermənistan Müdafiə Nazirliyində ABŞ ordusunun xüsusi nümayəndəsinin çalışacağı barədə məlumatı məhz Uzra Zeya vermişdi.

Sadaladıqlarımıza bu yaxınlarda başa çatmış ABŞ–Ermənistan birgə hərbi təlimlərini də əlavə etsək, yaxın vaxtlarda okeanın o tayından üzüb gələn zolaqlı-ulduzlu gəminin dənizlərə çıxışı olmayan Ermənistan “sahillərinə yan almasının” şahidi olacağıq. Əslində, bu qüsurlu improvizə iki ölkə arasında münasibətlərdəki asimmetriyanı, Vaşinqtonun Cənubi Qafqazda ədalətli sülh və sabitliyin bərqərar olmasında maraqlı tərəf olmadığını nümayiş etdirir. Bunun tamamilə əksinə olaraq, reallıq onu deyir ki, ABŞ Ermənistan cəmiyyətində revanşist əhval-ruhiyyənin qorunub saxlanmasında nəinki maraqlıdır, hətta onun inkişafına töhfə verir. Erməni xalqı isə öz tarixində artıq neçənci dəfədir ki, böyük yırtıcıları yemləyən, amma sonda özü ac qalan “oyuncaq yalquzaq” rolunda çıxış edir.

*

Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması, ikitərəfli sülh danışıqlarının dinamikası barədə həmişə nikbin və həvəslə danışan ABŞ Dövlət Departamentinin rəsmisi bu dəfə, nədənsə, mövzuya ehtiyatlı yanaşıb. Bu barədə jurnalistin sualını cavablandıran Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel Ermənistan–Azərbaycan məsələsində irəliləyişin mümkünlüyü barədə danışmaqdan çəkinib. O, sadəcə, “bu, həm Dövlət katibi Antoni Blinkenin, həm də koordinator Luis Bononun fəal şəkildə davam etdirdiyi məsələdir, amma məndə hər hansı yeni xəbər və ya cədvəl yoxdur”.

Hazırkı məqamda baş verənlərin bir qədər fərqli, daha praqmatik izahı da var. Ağ evdəki demokratların administrasiyası ABŞ-dəki erməni diasporunun səslərini qazanmaq üçün mübarizə aparır. İntəhası, təcrübə onu göstərir ki, ermənilərin səsini alıb seçkilərdə qalib gələn demokratlar hakimiyyətlərinin birinci yarısında dəstəkçilərinin maraqlarını qorumaqda o qədər də canfəşanlıq etmir, nisbətən praqmatik davranmağa çalışırlar. Onlar erməniləri bir də növbəti seçkilərdə xatırlayırlar. Fəqət, oyuncaq “yalquzaq” missiyasını icra edən ermənilər başlarına gələnlərdən dərs almaq istəmirlər.

Qarşı tərəf anlamır, ya da anlamaq istəmir ki, yeni müharibə Ermənistanın sonu demək olacaq. Azərbaycanın müzəffər Ordusu hazırda şərti sərhəddə, eləcə də bölgədə hərəkətdə olan hər şeyə və bütün prosesə nəzarət edir. Hadisələrin hansı məcrada gedəcəyindən asılı olaraq, Azərbaycan Ermənistanla hər an, həm də son döyüşə hazırdır. Amma biz müharibə deyil, sülh, əməkdaşlıq, normal münasibətlərin bərpasını istəyirik.

Sonda yazının əvvəlində qoyduğumuz sualın üzərinə qayıdırıq. Ermənistan öz davranışı və təxribatları ilə, konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarından əl çəkməməklə, həqiqətənmi, bölgəni yeni müharibəyə sürükləyir? Deməli, Azərbaycan müharibəyə hazır olmalıdır. Arzulamasaq da, bu, bizim üçün növbəti, Ermənistan üçün isə son döyüş ola bilər.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Elxan ŞAHİNOĞLU,**
**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı:**



– Müstəqilliyimizi qazandıqdan bu yana ABŞ Konqresi dəfələrlə Azərbaycan əleyhinə qərarlar qəbul edib, açıqlamalar verib. Əlbəttə, burada erməni lobbisinin

gücünü danmaq olmaz. Konqresmenlər bəzən bu gücdən sui-istifadə edir, ədalətsiz mövqe sərgiləyirlər. Yəni, hər zaman haqlını haqsız çıxarmağa çalışıblar. Doğrudur, Ağ ev, Dövlət Departamenti bu gücü malalamağa çalışırlar, amma onlar bədnam 907-ci düzəlişin ABŞ-nin Cənubi Qafqazla, Azərbaycanla əməkdaşlığına mənfi təsir göstərdiyini konqresmenlərə başa sala bilərdilər.

Əgər Vaşinqton bölgədə maraqlarını qorumaq istəyirsə, Azərbaycana qarşı addım atmamalıdır. İkili yanaşma yenə davam edir. Bir tərəfdən Ermənistana 65 milyon dollar yardım edir, digər tərəfdən iki ölkə arasında moderator ola biləcəyini açıqlayır. Bakı Vaşinqtonun moderatorluğundan imtina eləmir, fəqət Konqresin bu cür davranışına Ağ evin səssiz qalması, bəzi hallarda isə Dövlət Departamenti rəsmilərinin qanunverici orqanda ermənilərə dəstək ifadə etmələri həm ABŞ–Azərbaycan münasibətlərinə mənfi təsir göstərir, həm də Vaşinqtonun arzuladığı Cənubi Qafqazda möhkəmlənmək siyasətini iflasa aparır. Bölgənin əsas dövləti Azərbaycandır və bizimlə əməkdaşlıq qurmadan burada möhkəmlənmək qeyri-mümkündür. Necə ki, Fransa anti-Azərbaycan siyasəti ucbatından Cənubi Qafqazdan əlini üzməli olacaq. Halbuki, keçmişdə Parislə ikitərəfli münasibətlər normal idi və bölgədə varlığını qoruyurdu.

Nə ABŞ, nə Fransa, nə də Hindistan yalnız Ermənistan üzərindən Cənubi Qafqazda “lövbər sala” bilər. Əksinə, onların mövqeləri daha da zəifləyəcək. Bu üçlüyün Ermənistanı silahlandırmasının arxasında başqa məntiq də gizlənir. Bu siyasət tək Azrbaycana qarşı deyil, bütövlükdə, Türk dünyasına qarşı həmlədir. Bəzi mərkəzlər Türk dünyasının möhkəmlənməsindən bərk narahatdırlar. Azərbaycana qarşı bu cür qərarlar həm də Türkiyəyə, Mərkəzi Asiya ölkələrinə qarşıdır.

Ermənistanın silahlanmasına gəldikdə isə rus yazıçısı Çexovun sözü ilə desək, birinci səhnədə divardan tüfəng asılıbsa, əmin olun ki, son hissədə həmin silahdan atəş açılacaq. Eləcə də məğlub və kasıb Ermənistanın bu cür silahlanması nəyə gətirib çıxara bilər? Amma bu dəfə Azərbaycan tarixi torpaqlarına gedib çıxa bilər.

REPLİKA

# Provokatorun həbsi

**Avropada radikal-sağçı ekstremistlərin tərəqqi etməsinin səbəblərini araşdıranlar bu kəsimdə qeyri-müəyyən qəzəbin yaratdığı davranışları müşahidə ediblər. Nifrətə, qəzəbə söykənən siyasi fəallığın mahiyyəti ondan ibarətdir ki, bu qruplar, partiyalar sabit deyil, dəyişkən və gözlənilməzdir. Onlar miqrantlara qarşı qəzəbləri, başqa irqə mənsublara, fərqli dinə sitayiş edənlərə qarşı ayrı-seçkiliyi ilə kütlədən seçilir, hər an hansısa cinayəti törətməyə hazır vəziyyətdə olan residivist kimidirlər. Bu ifrat sağçıları pulla şirnikləndirib hansısa qrupa, partiyaya, hətta ölkəyə qarşı siyasi fəaliyyətə cəlb eləmək o qədər də çətin deyil. Son vaxtlar “qoca qitə”nin qabaqcıl ölkələrində sonuncular çoxalmaqdadırlar. Stiven Kristofer də belələrindən idi...**

Cavabı bəlli olsa da, maraqlı sualdır: Niyə əqli cəhətdən şikəst adamlar, cəmiyyətin zibilləri həmişə erməni revanşistlərinin ətrafında toplaşır? Bu məzmunda kriminal xəbərləri oxuyanda belə təsəvvür yaranır ki, Avropanın hansı ölkəsindəsə kimsə  “əzabkeş erməni xalqını” növbəti “soyqırımı”dan xilas etməyə çağırır. Bu mövzu hətta Ermənistanın özündə artıq bir qədər mənasızlaşıb, daha radikal şüarlar səsləndirmirlər. Fəqət, Avropadakı, ABŞ-dakı diaspor heç cür reallığa təslim olmaq istəmir. Yenə Azərbaycanın adı ətrafında havanı qızışdırır, bu “özfəaliyyətə” qoşulmaq istəyən hər kəsi özünə cəlb edir. Adətən, daşnak-revanşist ermənilərə yan alanlar alovlu fırıldaqçılar, aşkar nasistlər, təcrübəli islamofoblar və bu qəbildən olan ünsürlərdir.

İngiltərənin təhlükəsizlik qüvvələri Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı dəfələrlə təxribatlar, qanuna zidd hərəkətlər etməyə çağıran Tommi Robinson kimi tanınan Stiven Kristofer Yaksli-Lennonu saxlayıb. Onunla birgə terrorçuluq ittihamı ilə başqa biri də həbs edilib. İndi istintaq ölkənin ən tanınmış sağçı fəallarından sayılan Robinson ətrafında araşdırma aparır.

Qeyd edək ki, Tommi Robinson dəfələrlə Azərbaycanın Böyük Britaniyadakı səfirliyinə qarşı təxribatlara çağırıb. O, 25 may 2024-cü ildə Londonun Holland Park ərazisində Azərbaycan səfirliyi qarşısında islamofob və irqçi qüvvələrin hərəkətlərinə dəstək verib, tərəfdarlarını nümayişlərdə iştirak etməyə çağırıb. Bu barədə müvafiq məlumat onun sosial şəbəkədəki rəsmi hesabında yerləşdirilib.

Bu qrupun iyulun 20-də keçirdiyi ikinci mitinqdə “İslamçı Azərbaycan tərəfindən xristian ermənilərin soyqırımına qarşı dünya xristianlarının birləşməsi” çağırışı səslənib. Hüquq-mühafizə orqanlarının bu anti-Azərbaycan cəbhəsinin muzdlu üzvünə qarşı hərəkətə keçməsinə də bu çağırışları səbəb olub.



Tommi Robinson kimdir? O, bir neçə dəfə məhkum olunub, üç həbs cəzası çəkib. Onun cinayətkar keçmişinə zorakılıq, maliyyə və imiqrasiya fırıldaqçılığı, narkotik maddələrin saxlanması və asayişi pozmaq kimi ittihamlar daxildir. Pobinson 2005-ci ildə hücuma görə, 2012-ci ildə ABŞ-yə daxil olmaq üçün saxta səyahət sənədlərindən istifadə etdiyinə görə və 2014-cü ildə ipoteka fırıldaqçılığına görə həbsxanaya düşüb. Deyəsən, onun budəfəki həbsxana həyatı uzun sürəcək.

Sual yaranır: Azərbaycan ərazisində o xarakterli hərəkətlərə yol verən, çağırışlar səsləndirən birisi dərhal saxlanılardı, ya yox? Əlbəttə! İngilislər bunu üçüncü cəhddən ediblər. Bəs, Fransada anti-Azərbaycan, islamofob, türkiyəfob çıxışların qarşısı niyə alınmır? Çünki Emmanuel Makronun idarə etdiyi Fransa nəinki belə qanunsuzluqlara göz yumur, əksinə onları təşviq edir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ermənistan öz bəyanatlarında səmimidirsə…

**İyulun 30-da Türkiyə–Ermənistan sərhədində iki ölkənin münasibətlərinin normallaşması prosesi üzrə xüsusi nümayəndələri – Sərdar Kılıç və Ruben Rubinyan arasında danışıqların beşinci raundu keçirilib. Kılıç və Rubinyan görüşdən əvvəl yeni təmir edilmiş “Marqara” sərhəd-keçid məntəqəsi ilə tanış olublar. Görüş Ermənistan ərazisində başlayıb. Sonra isə sərhədin Türkiyə tərəfində – “Alican” sərhəd-keçid məntəqəsində davam etdirilib.**



Müzakirələrin yekunları ilə bağlı məlumat yayan Türkiyə Xarici İşlər Nazirliyi bildirib ki, xüsusi nümayəndələr əvvəlki görüşlərində razılaşdırılmış məsələləri bir daha təsdiqləyiblər. İki ölkə diplomatik pasport sahibləri üçün qarşılıqlı viza prosedurlarını asanlaşdırmaq barədə razılığa gəlib. Bundan başqa, tərəflər Akyaka/Axurik dəmir yolu sərhəd qapısının regional inkişafa uyğun olaraq istifadəyə veriləcəyi təqdirdə tələb olunacaq texniki ehtiyacları qiymətləndirmək barədə razılıq əldə ediblər. Razılaşma bəyanatda öz əksini bu şəkildə tapıb: “Xüsusi nümayəndələr, həmçinin Akyaka/Axurik dəmir yolu sərhəd qapısının regional inkişafa uyğun olaraq istifadəyə veriləcəyi təqdirdə tələb olunacaq texniki ehtiyacları qiymətləndirmək və diplomatik pasport sahibləri üçün qarşılıqlı viza prosedurlarını asanlaşdırmaq barədə razılığa gəliblər. Xüsusi nümayəndələr son məqsədi tam normallaşma olan bu prosesi heç bir ilkin şərt olmadan davam etdirməyə razı olduqlarını təsdiqləyiblər”.

Görüşlə bağlı “X” platformasındakı hesabında paylaşım edən S.Kılıç Ermənistandan olan həmkarı ilə danışıqları konstruktiv adlandırıb. “Biz Türkiyə–Ermənistan sərhədində, səhər Ermənistan tərəfində, günorta isə Türkiyə tərəfində danışıqların beşinci raundunu keçirdik. Münasibətlərin normallaşması prosesinin bütün aspektlərini və gələcək irəliləyiş imkanlarını konstruktiv şəkildə müzakirə etdik ” – yazan S.Kılıç paylaşıma Rubinyanla görüşünün videosunu da əlavə edib.

Qeyd edək ki, R.Rubinyan və S.Kılıç çoxdan görüşmürdülər. Sonuncu dəfə 2022-ci il iyulun 1-də Vyanada keçirilən görüşdə xüsusi nümayəndələr Ermənistan və Türkiyəyə səfər edən üçüncü ölkə vətəndaşları üçün ən qısa müddətdə Ermənistan–Türkiyə quru sərhədini keçmək imkanı yaratmaq barədə razılığa gəlmişdilər. Bu istiqamətdə zəruri proseslərin başlanacağı qərara alınmışdı.

Yada salaq ki, Ermənistan baş naziri Nikol Paşinyan iyulun 26-da Armavir vilayətinə səfəri zamanı “Marqara” sərhəd-keçid məntəqəsinə gəlib, məntəqədə aparılan modernləşdirmə işləri ilə tanış olub. Layihənin ümumi dəyəri təxminən 2,5 milyon dollar təşkil edib.

ABŞ Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel isə görüşdən əvvəl keçirdiyi brifinqdə xüsusi nümayəndələrin görüşünü şərh etməyib. “Bu, dövlət katibinin diqqət mərkəzində olan məsələdir və biz onunla məşğul olmağı fəal şəkildə davam etdirəcəyik” – deyə Patel bildirib.

Ermənistan tərəfinin Türkiyə ilə münasibətləri normallaşdırmaq istiqamətində cəhdlər göstərməsinə, bu prosesi Azərbaycanla münasibətlərdən ayırmağa çalışmasına baxmayaraq, Ankaranın prinsipial mövqeyindən bir addım da geri çəkilməyəcəyi hər kəsə aydındır. Ermənistan və Azərbaycan arasında davamlı sülh əldə olunmadan, o cümlədən şərti sərhəddə təxribatlara son qoyulmadan və sərhədlərin delimitasiya və demarkasiya prosesi tam həllini tapmadan Türkiyənin “Alican” sərhəd-keçid məntəqəsini açacağı inandırıcı görünmür. Əgər İrəvan, həqiqətən də, Türkiyə ilə sərhədlərin açılmasını, qarşılıqlı gediş-gəlişin olmasını, o cümlədən iqtisadiyyatının böyüməsini təmin etmək istəyirsə, Azərbaycanla danışıqlar prosesini sürətləndirməli, sülhə xələl gətirən addımlardan əl çəkərək real yanaşma ortaya qoymalıdır.

**Mövzu üzrə fikirlərini “XQ” ilə bölüşən “Qafqaz Strateji Araşdırmalar Mərkəzi” sədrinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru Nazim Cəfərsoy** bildirdi ki, görüş Türkiyənin Cənubi Qafqazda fəallaşdığını növbəti dəfə təsdiq edir. Ekspert görüşün motivləri arasında müxtəlif məqamların olduğunu düşünür. Onun sözlərinə görə, bu proses Türkiyə və Azərbaycanın koordinasiyası ilə aparılır. İki ölkə strateji müttəfiq kimi bölgədə əlaqələndirilmiş şəkildə hərəkət edirlər. Türkiyənin Ermənistanla münasibətləri bu koordinasiyanın əhəmiyyətli məqamlarından birini təşkil edir:

*(ardı 4-cü səhifədə)*

Tarixi vərəqləyərkən...

# Süreyya Ağaoğlunun Atatürk xatirələri

**Türkiyənin ilk qadın vəkili Süreyya Ağaoğlu 1903-cü ildə Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, görkəmli publisist və tənqidçi, şərqşünas-alim Əhməd bəy Ağaoğlunun ailəsində dünyaya göz açıb. Atası Əhməd bəy 1905-ci ildə çar hökumətinə və erməni daşnaklarına qarşı mübarizə məqsədilə "Difai" təşkilatını yaratmışdı. Davamlı təqiblərə məruz qalan Əhməd bəy 1908-ci ildə Vətəni tərk etmək məcburiyyətində qalıb və ailəsi ilə birgə İstanbula köçüb.**



Sürəyya Ağaoğlunun uşaqlıq və gənclik illəri ziyalılar, alimlər, eləcə də Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün yaxın dostları arasında keçib. Hələ uşaq yaşlarından vəkil olmağı arzulayan Sürəyya xanım ictimai-siyasi proseslərin əhatəsində böyüyüb.

Sürəyya Ağaoğlu İstanbul Universitetinin Hüquq fakültəsinə qəbul olunmağa qərar verib. Lakin o vaxtlar həmin fakültədə yalnız oğlanlar oxuyurdular. İnadından dönməyən Sürəyya xanımın qətiyyəti və əzmi sayəsində az sonra qız tələbələr üçün Hüquq fakültəsi açılır. 1928-ci ildə fərdi iş lisenziyasını alaraq Türkiyənin, eləcə də bütün Türk dünyasının ilk qadın vəkili kimi tarixə düşüb. O, kimsəsiz və qayğıya ehtiyacı olan uşaqlara yardım göstərmək məqsədilə 1948-ci ildə Türkiyədə ilk dəfə "Sürəyya Ağaoğlu uşaq dostları" adlı dərnək yaradıb, öz hesabına uşaqlar üçün sığınacaq tikdirib.

Bir neçə xarici dili mükəmməl bilən Sürəyya Ağaoğlu beynəlxalq konfranslarda Türkiyəni yüksək səviyyədə təmsil edib. 1946-1960-cı illərdə İstanbul Vəkillər Kollegiyası İdarə Heyətinin yeganə qadın üzvü olub. Sonralar Beynəlxalq Qadın Hüquqşünaslar Assosiasiyasının üzvü, Qadın Hüquqşünaslar İttifaqının BMT-nin Cenevrə Təşkilatındakı nümayəndəsi, Hüquqşünas Qadınlar Federasiyasının vitse-prezidenti seçilib. S.Ağaoğlu sonuncu dəfə 1989-cu il dekabrın 29-da İstanbulda "Qadın haqları və müasirləşmə" mövzusunda konfransa qatılıb. Binadan çıxarkən pilləkənlərdən yıxılan Sürəyya xanım beyin qanaması keçirərək dünyasını dəyişib.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra Atatürk siyasətinin prioritetlərindən biri türk qadınını önə çəkərək, cəmiyyətdə onların fəallığına nail olmaq idi. Sürəyya Ağaoğlu da bunun sayəsində Türkiyədə adını ilklər siyahısına yazdıra bilmişdi. Bütün həyatı boyu Atatürk dəyərlərini qoruyub saxlayan, Kamalist fəlsəfəsinə dərindən nüfuz edən, ictimai həyatında bu dəyərlərə bağlılığı ilə seçilən Sürəyya Ağaoğlu ömrünün sonunadək Böyük öndərin şəxsiyyətinə sayğı ilə yanaşdı, dəvət olunduğu xarici ölkələrdəki konfranslarda, plenar iclaslarda, Türkiyənin müxtəlif məkanlarında Mustafa Kamal paşadan hörmətlə söhbət açdı, xatirələr söylədi.

Atası Əhməd bəy Ağaoğlunun Atatürklə münasibətlərində kəskin, ziddiyyətli təzadlar olmasına baxmayaraq, S.Ağaoğlu bu iki tarixi şəxsiyyətin münasibətləri fonunda heç vaxt fərqli, neqativ yanaşmalar ortaya qoymadı. Atatürkün başlatdığı Qurtuluş savaşı və Türkiyə inqilabı S.Ağaoğlunun şəxsi keyfiyyətlərini, bilik və bacarığını ortaya qoydu, istedadının parlamasına imkan yaratdı, qadınların ictimai-siyasi həyatda fəal mövqe qazanması səyini əsirgəmədi. Bu, Sürəyya xanımın Türkiyənin inkişafına yön verən 10 qadından biri olaraq tarixləşməsində mühüm rol oynadı. S.Ağaoğlunun Türkiyənin müxtəlif mətbu nəşrlərində, televiziya arxivlərində, özünün qələmə aldığı memuarlarında Atatürklə bağlı xatirələri qorunub saxlanılır. Hələ gənc yaşlarında Atatürkü yaxından görən S.Ağaoğlu bu tarixi şəxsiyyətin ailəsini yaxından tanıyıb, onun evində keçirilən ziyafətlərdə iştirak edib.

"Bir ömür belə keçdi. Səssiz gəmini gözlərkən" memuarında S.Ağaoğlu Atatürkdən öncə onun ailəsini tanıdığını qeyd edərək yazır: "Atamın böyük dostu Ömər Nacigilin evinə tez-tez qonaq gedərdik. Bağçaları çox gözəl idi. Ağaclara dırmaşıb doyunca meyvə yeyərdik. Tez-tez ora Kamalın anası deyə tanıdığımız, daim mavi bir yaylıq bağlayan sərt baxışlı və sərt rəftarlı bir xanım gəlirdi. O gəldiyi zaman biz uşaqlar bağçanın dörd bir tərəfinə qaçardıq. Bu xanımın Atatürkün anası olduğunu sonradan öyrəndik".

S.Ağaoğlunun memuarlarından aydın olur ki, Atatürklə əyani tanışlığı 1925-ci ildə İstanbul Universitetini bitirəndən sonra Ankarada olub. Ailəsinə gənc hüquqşünas kimi qayıdan S.Ağaoğlunun cəsarət göstərib İstanbul Universitetində hüquq fakültəsinin qızlar üçün açılmasında göstərdiyi fədakarlıq Atatürkün diqqətindən yayınmamışdı. Mustafa Kamal paşa ilə görüşünü həyatının ən xoş günü kimi xatırlayan S.Ağaoğlu yazır: "Ankaraya qayıdandan qısa bir müddət sonra Atatürk anamı, atamı, Tezəri və məni evinə şam yeməyinə dəvət etdi. Biz gedəndə Lətifə xanım (Atatürkün xanımı -red.) Cavad Abbas bəy (Atatürkün yavəri, üç dəfə Türkiyə Böyük Millət Məclisinin millət vəkili – red.) və Məqbulə xanımın (Atatürkün bacısı) əri Mustafa bəylə söhbət edirdilər. Lətifə xanım bizi qəbul etdi və Kamalın fermada olduğunu söylədi. Bir az sonra Atatürk gəldi. Böyük bir şövqlə, ümidlə işlədiyi fermadan traktorla qayıtmışdı. Yorğun və xoşbəxt görünürdü. Üzünü anama tutub: – Sitarə xanım, Əhməd bəy üstümdəkiləri dəyişdirmədən olar - sualına atamla anam "Əlbəttə, paşam" – cavabını verdilər. Fermadan çox məmnun qayıtmışdı. Atama: – Əhməd bəy, şam ağacları böyümüşdü, meşəlik olmuşdu. Bax, Ətlik, Keçiörən parıldayır – dedi".

"Atatürkün öydüyü şam ağacları hələ bir fidan idi, Keçiörəndə və Ankaranın digər yerlərində zəif lampa işıqları yanırdı. Bütün bunlar Atatürkün nəzərində böyük işlər kimi görünürdü, amma gələcəyi görərək özünü xoşbəxt hiss edirdi" – söyləyən S.Ağaoğlu bir qədər sonra İsmət paşanın gəldiyini xatırlayır: "Atatürk mənim və Tezərin yaxşı təhsil almağımızla iftixar edirdi. Bax, İsmət – dedi – Sürəyya hüquq fakültəsini bitirdi, Tezər fəlsəfə fakültəsinin sonuncu kursundadır. Türk qızları nə gözəl irəliləyirlər. İsmət paşa heç bir cavab vermədi".

İsmət paşanın atası ilə münasibətlərinin o qədər də yaxşı olmadığını xatırlayan Sürəyya xanım oxucunun diqqətini paşanın laqeydliyi üzərinə yönəltmək istəməyərək, Atatürkün bu iki bacının, Türkiyənin gələcəyi olacaq gənc xanımların uğurlarına nə qədər sevindiyini vurğulayaraq xatirələrini dilə gətirir: "Süfrədə Atatürk məni sağında, Tezəri isə solunda oturtdu. Çox xoş söhbət edirdi. Bizə keçmiş günlərindən, əyləncəli xatirələrini danışdı".

İsmət İnönü məclisi tərk edib gedəndən sonra məclis əvvəlki məcrasına qayıdır, Atatürk "Türk gəncliyinin gələcək nümunələri" olan Tezər və Sürəyya xanımın baxış və düşüncələri ilə maraqlanır. Müxtəlif tədbirlərdə, Atatürklə bağlı anım gecələrində o günləri xatırlayan Sürəyya xanım həmin axşamı belə xatırlayırdı: "Yemək zamanı Atatürk məni sağ, Tezəri isə sol tərəfində əyləşdirdi. Çox xoşbəxt idi. Yemək gələndə xidmətçi boşqabı Atatürkə, o isə mənə uzatdı. Təbii ki, alıb qabağıma qoydum. Sonra boşqabı Tezərə uzatdı. Mənimlə üzbəüz oturan atamın gözlərindən şimşək yağırdı. Yemək xoş keçdi. Biz gedəndə Lətifə xanım yavaşca:

– Evdə çəkəcəyin var. Atan sənə çox hirsləndi – dedi və güldü. Anamla atam hirslərini tökmək üçün evə qədər də gözləmədilər. Atatürkün bizi evə aparmaq üçün verdiyi avtomobilə minər-minməz atam:

– Hüquq fakültəsini bitirmisən, amma adam olmamısan. Dünyanın ən böyük şəxsiyyətlərindən biri sənə xidmət edir, sən də sakitcə alırsan – dedi. Asta səslə:

– Nə edim, mən də hüquq fakültəsini bitirən ilk türk qızıyam – dedim".

S.Ağaoğlunun qardaşı, Türkiyənin ictimai-siyasi ədəbi həyatında böyük xidmətləri olan Samət Ağaoğlu və bacısı Tezər Ağaoğlunun da Atatürklə bağlı xatirələri var və bu xatirələrin bir qismi çap olunub. Ağaoğluların çap olunan memuar xatirələrindən aydın olur ki, Mustafa Kamal və Lətifə xanım Əhməd bəyin Ankaranın Keçiörən məhəlləsindəki evlərinə tez-tez baş çəkib, qonaq olublar. Ağaoğlu bu barədə yazırdı: "O dövrdə (1924-1928-ci illər nəzərdə tutulur - A.A.) Atatürk xoş ailə mühitində olmağı xoşlayır, vaxt keçirməyi sevir, gənclərlə söhbətlərdən xoşhal olurdu: "Biz o illərdə Ankaranın sayılan, oxumuş, yüksək təhsil görmüş və Qərb anlamında həyat mübarizəsinə atılmış gənclər idik. Ona görə də Atatürk sevgi və təqdir hisslərini bizdən əsirgəmirdi".

Atatürk Ağaoğlular ailəsinə hörmət və sayğını bir çox ictimai yerlərdə, toplantılarda büruzə versə də, çılğın milliyyətçi Əhməd bəylə bir neçə dəfə qarşı-qarşıya gəlmiş, hətta münasibətləri bir müddət düzəlməz hal almışdı. Atatürkün qarşısında hər kəs müvazinətini, şəxsi ləyaqət hissini saxlaya bilməsə də, ən çətin anlarda Əhməd bəy Ağaoğlu işsiz qalsa da, özünün yazdığı kimi, həyatın xaricinə atılsa da, cəsarət göstərə bildi. 1934-cü ilin yazında İstanbulda Atatürklə Əhməd bəyin münasibətlərinin sağ qırılma nöqtəsi barədə Sürəyya Ağaoğlu yazır: "Böyük Adada yaxt-klubda qalırdıq. Bir gecə Atatürk yanında Cəlal Bayar (Türkiyə Cümhuriyyətinin 3-cü prezidenti, Atatürkün yaxın silahdaşı), Şükrü Qaya, Qılınc Əli, aktyor Vəsri Rza, Şükrü Naili paşa və bəzi xanımlar kluba gəldi. Bir az oturduqdan sonra:

– Əhməd bəy, İsmət paşa "Əhməd bəyə dövlət qulluğunda yer yoxdur" – dedi. Atam sərt bir şəkildə:

– Mən kimsədən dövlət qulluğu istəmədim – cavabını verdi.

Atatürk görünür bu cür sözlərlə Əhməd bəy Ağaoğluna vəzifədən kənarlaşdırılmasında Baş nazir İsmət İnönünün olduğunu çatdırmaq istəyib. Atasının emosional, sərt davranışını gözəl bilən Sürəyya xanım söhbətə müdaxilə edərək, vəziyyəti bir qədər yumşaltmağa çalışır. Həmin gərgin söhbəti xatırlayan S.Ağaoğlu yazır: "Mən söhbətə qarışaraq anamın vəfatından sonra atamın çox üzgün və əsəbi olduğunu söylədim. Atatürk uzaqlaşdı. Getməyə hazırlaşırdıq ki, Atatürk məni rəqsə dəvət etdi və "gəl bizi barışdır, atan mənə çox əsəbiləşdi" – söylədi. Bir az sonra Atatürk ilə qarşılaşan atam:

– Mən həyat yoldaşımı itirdiyimə görə yasdayam. İstənilən vaxt oxşanacaq, istənilən vaxt atılacaq adam deyiləm. Kimsənin də önündə əzilmərəm – demişdi. Şükrü Naili paşa (Atatürkün gənclik dostlarından biri, Qurtuluş savaşının qəhrəmanı) eşitdiklərindən heyrətlənərək Atatürkə "Paşam, müsaidə edin, məmləkətdə heysiyyətli adamlara toxunulmasın" – sözləri ilə müraciət edərək, cümhurbaşqanı qarşısında Əhməd bəyi müdafiədən çəkinməmişdi".

Memuar və xatirələrində atası ilə Atatürkün münasibətlərindəki ziddiyyətlərə toxunan S.Ağaoğlu hər iki tarixi şəxsiyyətin ömürlərinin sonuna yaxın bir araya gəldiklərini yazır: "Bir axşam o zaman qaldığım "Ankara Palas" hotelinin restoranında qardaşım Səməd, Bəha Arıkan və digər dostlarımızla yemək yediyimiz zaman Atatürk yaxın ətrafı ilə gəldi. Yanında kiçik Ülkü (Atatürkün mənəvi qızı) da vardı. Atatürk rəqs edərkən bizi gördü, masamıza yaxınlaşdı. Samətə:

– Nə qədər də atana bənzəyirsən! – dedi. Sonra məni rəqsə dəvət etdi. Rəqs vaxtı:

– Sürəyya, atan necə də bəxtiyardır. Övlad sahibi olmaq dünyada ən böyük nemətdir. Mən də bu əskikliyimi Ülkü ilə aradan qaldırmağa çalışıram – dedi. Atatürk mənə:

– Atana zəng elə və onun şərəfinə içdiyimi söylə – dedi. Bu hadisə atamla İstanbulda aralarında olmuş xoşagəlməz münaqişədən sonra baş verirdi. Yavəri Nəsrullah bəylə atama zəng etdik. Atatürk onun könlünü almaq istəyirdi".

Əhməd bəy Ağaoğlunun Atatürklə son görüşü 1937-ci ilin yazında İstanbulda Böyük Adada olub. Həmin görüşü Sürəyya Ağaoğlu belə xatırlayır: "Klubda atam, Fuad Sirmən, Hamit Peksan bəylər ilə oturduğumuz vaxt "Atatürk gəldi" – söylədilər. Atam: – Aman, məni görməsin – deyə ağacların arxasına çəkildi. Yanımızda oturan iki nəfər də qalxıb getdi. Bir azdan Tofiq Rüştü yaxınlaşıb Atatürkün gəlib bizi çağırdığını söylədi. Getdik. Qazi atama sarıldı. "Həsrətin qəlbimdə, "Lakin kim bilir sən haradasan" - şərqisinin sözlərini söylədi. – Çox darıxdım sənsiz – dedi. Sonra əlavə etdi: – Vaxtilə Sürəyya sənin yaraşıqlı olduğunu söyləmişdi. Haqlı imiş. Bu baş ancaq bir türkdə ola bilər".

Bir neçə gün sonra Əhməd bəyin halı pisləşir. Kluba gələn Atatürk xəbəri eşidən kimi salonda Fəhri Okyarın uşaqları ilə bir yerdə dincələn Sürəyya xanımı yanına çağırıb əvvəlcə "Keçmiş olsun" – deyib, tapşırıq verir: "Haydı, get atanın yanında otur, salona enmə, ona yaxşı bax".

Bu, Əhməd bəylə Atatürkün həyatda son görüşü idi. Mustafa Kamal paşa Atatürkə sayğı, hörmət bəsləyən Ağaoğlu ailəsi üçün ən ağır tarix bu böyük tarixi şəxsiyyətin 1938-ci ilin 11 noyabrında gözlərini əbədiyyən qapatması oldu. Özünü daim Atatürkçü, milliyyətçi hesab edən, bundan daim qürur duyan S.Ağaoğlu memuarında həmin ağır günü xatırlayaraq yazır: "Atatürkün öldüyü gün Üsküdarda məhkəmə iclasında idim. Mənə elə gəlirdi ki, sanki bundan sonra həyat büsbütün dayanacaq. Nəhayət, ağlaya-ağlaya gəmiyə mindim, məhkəməyə getdim və dərhal da evə döndüm. Evdə anamın öldüyü günlərdə olduğu kimi matəm yeli əsirdi. Atam başını yazı masasının üstündə əyərək hönkür-hönkür ağlayırdı:

– O sanki bir dağ idi – deyirdi. Bəzən alov püskürürdü. Alovu məni də qarsıyırdı. Amma bu, nə gözəl bir alov idi".

***Akif AŞIRLI,***
***"Şərq" qəzetinin baş redaktoru***

**PS. Məqalə Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyəsi hesabına Azərbaycan Türk Ocağı İctimai Birliyi tərəfindən hazırlanıb.**

# Ermənistan öz bəyanatlarında səmimidirsə…

**(əvvəli 3-cü səhifədə)**

"Görüşün ağla gələn ilk səbəbi ondan ibarətdir ki, Azərbaycanla Ermənistan arasında danışıqlarda müəyyən irəliləyişlər əldə olunub. Bəlkə də bu ilk baxışda nəzərə çarpmır. Amma mən pərdə arxasında müəyyən irəliləyişlərin olduğunu təxmin edirəm. Bu, görüş də, əslində, həmin irəliləyişlərə cavab vermək mahiyyətində Türkiyənin fəallaşmasını özündə əks etdirir. Ankaranın Cənubi Qafqazda fəallaşması, heç şübhəsiz, bizim strateji maraqlarımıza uyğundur".

Politoloq bildirdi ki, ikincisi, ABŞ-nin bu məsələ ilə bağlı Türkiyəyə yönəlik təşviq və təkidlərinin rolu var. Çünki mövcud ABŞ administrasiyası, yəni demokratlar seçkilərdə qalib gəlmək üçün bütün imkanlardan istifadə etməyə çalışırlar. Burada erməni lobbisinin dəstəyi xüsusi anlam qazanmağa başlayıb. Co Bayden administrasiyasının erməni diasporu ilə yaxın əlaqələri də yaxşı məlumdur. Bu çərçivədə erməni diasporunun dəstək vermək qarşılığında ABŞ-dən Ermənistanla bağlı bəzi tələbləri olur. ABŞ administrasiyası da Cənubi Qafqazda Ermənistanın durumunu yaxşılaşdıracaq, yaxud İrəvanı dəstəkləyəcək bəzi addımlar atmağa çalışır. Bu çərçivədə Türkiyəni təşviq, hətta bəzən ona təsir etməyə çalışırlar ki, Ermənistanla münasibətləri normallaşdırma istiqamətində fəallaşsın: "Düşünürəm ki, Ankaranın bu fəallığının digər motivi Qərbdən, xüsusilə ABŞ-dən gələn təkid və təşviqlərdir. Xüsusilə, son dövrlərdə fəallığın artmasının bir səbəbi də Baydenin getməsi, Kamala Harrisin gəlməsi və demokratların seçkini udmaqla bağlı imkanlarının daha da artmış olmasıdır. Doğrudur, Tramp hələ də öndədir. Ancaq demokratlar Harrislə bərabər bu prosesdə şanslı ola bilərlər. Ona görə də amerikalılar bu istiqamətdə fəallaşmağa çalışırlar. Bu fəallaşma həm də Türkiyə istiqamətində, Ankaranın İrəvanla müzakirələri aktivləşdirməsi fonunda cərəyan edir. Zənnimcə, bu da ikinci məqamdır".



N.Cəfərsoy qeyd etdi ki, üçüncüsü, Rusiyanın bölgədə fəallaşması özünü göstərir: "Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın yenidən ortaq platforma təklif etməsi cəhdini xatırlayaq. Bu da, təbii ki, Cənubi Qafqazda digər regional aktor – Rusiyanın fəallaşması fonunda Türkiyənin aktivləşməsini gündəmə gətirir. Nəzərə almaq lazımdır ki, Rusiya həm Ermənistanla, həm də Azərbaycanla yaxşı münasibətlərə malikdir. Burada Türkiyə də fəallaşaraq, sanki buna cavab verir".

Politoloqun fikrincə, dördüncüsü, fəallaşan başqa güc Avropa İttifaqı, xüsusilə Almaniyadır. Azərbaycan və Ermənistan liderləri arasında 2024-cü il fevralın 17-də Münxendə Almaniya Kansleri Olaf Şoltsun təşəbbüsü ilə görüş keçirilmişdi. Almaniyanın timsalında Aİ-nin bölgədə fəallaşması Türkiyənin də fəallaşmasını təmin edən səbəblərdən biridir.

Beşincisi, iyulun 30-da andiçmə mərasimi keçirilən İran Prezidenti Məsud Pezeşkianın "Tehran Tayms"a verdiyi müsahibədə xarici siyasətdə region amilinə xüsusi önəm veriləcəyini xatırladan N.Cəfərsoy qeyd etdi ki, bu isə Tehranın həm Azərbaycanla, həm də Ermənistanla münasibətlərin inkişaf etdirilməsi mənasına gəlir: "Təbii ki, İranın fəallaşması Ankaranın da aktivləşməsinə yeni impuls qazandırır. Dolayısı ilə sadaladığımız bu beş səbəb Türkiyənin də proseslərdə fəallaşmasını gündəmə gətirir. Görüşün digər motivi isə ondan ibarətdir ki, "3+3" formatında müzakirələrin növbəti məkanı Türkiyə olmalıdır. Görüş xeyli müddətdir ki, ləngiyir. Ləngimənin əsas səbəblərindən biri də Ermənistanda buna qarşı çıxanların güclü olmasıdır. Sərhəddəki görüş həm də "3+3" formatı ilə bağlı etirazları və psixoloji baryeri azaltmağı, Ermənistan nümayəndəsinin görüşdə iştirakına nail olmağı da ehtiva edir".

Politoloq onu da bildirdi ki, İrəvan–Bakı münasibətləri ilə bağlı həllini gözləyən 3 əsas məqam var. Bunlardan biri Zəngəzur dəhlizinin açılması, ikincisi Ermənistan konstitusiyana dəyişiklik edilməsi, üçüncüsü isə müharibənin humanitar nəticələrinin aradan qaldırılması ilə bağlıdır. Bu məsələlərin hər üçü Türkiyənin birbaşa içində olduğu və Ankaranı maraqlandıran mövzudur. Qoyulan məsələlər həllini tapmadan Türkiyə–Ermənistan münasibətlərinin normallaşması istiqamətində uğurlu nəticələr əldə olunacağı problemdir. Əgər Ermənistan Türkiyə ilə münasibətlərin normallaşdırılmasına dair bəyanatlarında səmimidirsə, bu istiqamətlər üzrə real addımlar atmalıdır.

***Səxavət HƏMİD***
***XQ***



## Milli Məclisə seçkilərə 31 gün qaldı

### SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# Xankəndi seçkilərə hazırlaşır



**"Son illər Azərbaycanın ictimai-siyasi həyatına xüsusi yazılan tarixi günlərdən daha birini də yaşayırıq. Müstəqillik tariximizdə ilk dəfə olaraq sentyabrın 1- də Xankəndidə, bütövlükdə, bütün ölkə ərazisində Milli Məclisə növbədənkənar seçkilər keçiriləcək. Bu Azərbaycanın möhtəşəm qələbəsinin daha bir nümunəsidir. Xankəndi növbəti seçki sevincini yaşamaqdadır. Şəhərdə artıq ikinci seçki məntəqəsi də yaradılıb. Məlum olduğu kimi, bu ilin əvvəlində keçirilmiş prezident seçkilərində Xankəndidə bir seçki məntəqəsi formalaşdırılmışdı. Növbədənkənar parlament seçkiləri ərəfəsində daha bir seçki məntəqəsi Kərkicahanda təşkil olundu. Seçkilərə 5 gün qalmış isə Xankəndidə daimi dislokasiya olunmuş hərbi qulluqçuların səsvermələrinin təmin olunması üçün müvəqqəti seçki məntəqəsi yaradılacaq. Təbii ki, seçki məntəqələrinin artması burada məskunlaşan və uzunmüddətli işləməyə gələnlərin sayının çoxalmasından xəbər verir".**

Bu fikirləri redaksiyamıza 122 saylı Xankəndi seçki dairəsinin sədri Ağalar Əliyev açıqladı.

Seçkilərə hazırlıqla əlaqədar ilk təəssüratlarını eksklüziv olaraq "Xalq qəzeti" ilə bölüşdüyünü deyən seçki dairəsinin sədri hazırda Xankəndidə demokratik, şəffaf və ədalətli seçkilər keçirilməsi üçün ciddi hazırlıq görüldüyünü bildirdi. Onun sözlərinə görə, səsverməyə hazırlaşanlar yüksək seçki əhval-ruhiyyəsindədirlər. Qürurverici haldır ki, 122 saylı Xankəndi seçki dairəsinin 14 saylı seçki məntəqəsinin şəhərin mərkəzi inzibati binasında yerləşir. Bu, həm mənfur ermənilərə, həm də onların havadarlarına güclü zərbədir. Bütün bunlar Azərbaycanın, onun liderinin gücünün, qüdrətinin göstəricisidir".

A.Əliyev Prezident İlham Əliyevin 2003-cü ildə ilk dəfə Prezident seçilərkən andiçmə mərasimində verdiyi vədi xatırladaraq dedi ki, o vaxt dövlətimizin başçısı işğal altında olan torpaqlarımızın mütləq azad ediləcəyini bildirmişdi. Bu gün artıq hər bir azərbaycanlı, eyni zamanda, dünya ictimaiyyəti bu reallığın şahididir. Artıq işğaldan azad edilmiş ərazilərimizdə seçkilərin keçirilməsinə də başlanılıb. Fəxr edirəm ki, 122 saylı Xankəndi seçki dairəsinin sədri kimi, seçkilərin təşkil olunmasından tutmuş demokratik, azad və ədalətli keçirilməsinə qədər bütün yükün ağırlığını çiynimdə daşıyıram. Bütün bunlar dədə - baba torpaqlarımıza əbədi qayıtdığımızın, bu yerləri cənnətə döndərəcəyimizin və ərazimizin bir qarışını belə düşmənə verməyəcəyimizin dünyaya sübutudur.



Dairənin əhatəsində olan seçki məntəqələrində aparılan hazırlıq işlərindən söhbət açan Ağalar müəllim qarşıya çıxan çətinliklərin seçki məntəqələrinin respublikamızın müxtəlif yerlərində yerləşməsi ilə əlaqələndirdi. Dedi ki, DSK Bakıda yerləşsə də, komissiya üzvlərinin günü rayonlarda keçir: " On beş daimi seçki məntəqəsi Bakı, Sumqayıt, Göranboy, Ağcakənd, Gəncə, Şəki və digər rayonlarda yerləşir. Bütün məntəqələri gəzmək, onları seçki ləvazimatı ilə təmin etmək böyük zəhmət tələb edir. Çünki seçki məntəqələri seçicilərin məskunlaşdıqları regionlarda yaradılıb. Biz bu işlərin öhdəsindən layiqncə gəlmişik".

"Bütün işlər MSK –nın hazırladığı təqvim planına əsasən aparılır"– deyən seçki dairəsinin sədri əlavə etdi ki, namizədliyin irəli sürülməsi avqustun 2-dək davam edəcək. Artıq vaxt daralıb. Ona görə də namizədlər tələsməli, tələb olunan sənədləri vaxtında təhvil verməlidirlər. İndiyədək namizədliyin irəli sürülməsi üçün 5 nəfər müraciət edib. Onlardan 2-si siyasi partiyaların nümayəndəsidir, 3 nəfər isə namizədliyini öz təşəbbüsü ilə irəli sürüb. Namizədliklərini irəli sürənlər arasında heç bir ayrı-seçkilik qoyulmayıb və hamısına imza vərəqələri verilib. Onların müşahidəçilərinin və səlahiyyətli nümayəndələrinin də qeydə alınmasına əlverişli şərait yaradılıb. Artıq seçici siyahıları da xüsusi lövhələrdən asılaraq məntəqlərin müvafiq yerlərində quraşdırılıb. Ancaq müəyyən səbəblər üzündən seçici siyahılarında dəyişiklik ola bilər.

Seçki dairəsinin sədri bütün işlərin Seçki Məcəlləsinin tələb uyğun qurulmasına çalışdıqlarını dedi: "Hazırda Xankəndi dünyanın diqqət mərkəzindədir. Ümid edirik ki, seçkilərin gedişini izləmək üçün bu şəhərə xeyli beynəlxalq müşahidəçi gələcək. Ona görə də çalışırıq ki, hazırlıq işləri qanunvericiliyin tələblərinə uyğun olaraq yüksək səviyyədə aparılsın. MSK tərəfindən hazırlanmış təlimat, yaddaş kitabçaları və digər metodiki vəsaitlər, həmçinin maarifləndirmə layihələri bu işlərdə komissiya üzvlərinə yardımçı olur. Şəffaf, demokratik, ədalətli seçki keçirmklə dünyaya sübut etməliyik ki, Azərbaycan buna qadirdir və bu torpaqların gerçək sahibləri bizik. Bu, dünya durduqca belə olacaq".

# Regionlarda seçkilərə hazırlıq davam edir

**Növbədənkənar parlament seçkilərinin keçiriləcəyi gün yaxınlaşdıqca deputat mandatı uğrunda mübarizə daha geniş vüsət alır. Hazırda seçkilərə namizədlərin irəli sürülməsi, imza vərəqələrinin yoxlanılması, seçici siyahılarının asılması kimi son hazırlıq işləri aparılır. Oxucuları bu işlərin regionlarda təşkili ilə tanış etmək üçün bir neçə seçki dairəsi ilə əlaqə saxladıq.**

## Balakən

**110 saylı Balakən seçki dairəsinin sədri Vahid Əliyev söhbət zamanı dedi ki, budəfəki seçkilərə maraq daha böyükdür. Namizədlər arasında siyasi partiayaların nümayəndələri fəallıq göstərirlər.**



"Seçkilərə hazırlığın ən qızğın dövrüdür. Namizədliyini irəli sürənlərin əksəriyyəti imzatoplama kampaniyasını başa vuraraq topladıqları imzaları seçki dairəsinə təhvil verirlər. Dairədə fəaliyyət göstərən ekspert və işçi qrupları imzaları son dərəcə dəqiqliklə yoxlayırlar" – deyən DSK sədri hazırda vacib işin seçici siyahısını dəqiqləşdirmək və seçki məntəqələrində yerləşdirməkdən ibarət olduğunu, bu məsələnin diqqət mərkəzində saxlanıldığını bildirdi. Bu məsələni diqqət mərkəzində saxlamışıq. Qeyd etdi ki, seçici siyahıları tez-tez dəyişir. Dünyasını dəyişənlərin adları siyahıdan çıxarılmalı, hərbi xidmətdən tərxis olunanlar siyahıya əlavə olunmalı, ilk dəfə səs verənlərlə görüş təşkil edib bu siyasi kampaniyada iştirak etməyin vacibliyi barədə məlumat verilməlidir. Bundan əlavə, aşağı seçki komissiya üzvlərinin maarifləndirmə layihələrində iştirakını da təşkil etməliyik. Bütün bunları mərhələ-mərhələ, qanunvericiliyin tələblərinə uyğun olaraq rinə hazırlıq işləri qanun çərçivəsində davam etdirilir. Bu işdə MSK -nın növbədənkənar seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planı köməyimizə çatır. Çalışırıq ki, seçki prosesində hər hansı qanun pozuntusu, narazılıq və insident yaranmasın. Namizədliyini irəli sürənlərə əlverişli şərait yaradılıb. Siyasi partiya mənsubiyyətindən və mövqeyindən asılı olmayaraq, hər bir kəs seçkilərə namizəd kimi qatıla bilər. Bununla bağlı indiyədək seçki dairəsinə 13 nəfər müraciət edib. Onlardan 4 nəfəri sonradan namizədliyini geri götürüb. Doqquz nəfərə imza vərəqələri verilib. Qalan proseslər namizədlərin özlərindən asılıdır. Etibarlı imzalar toplayanların namizədliyi dairənin ekspert və işçi qrupu tərəfindən yoxlanıldıqdan sonra qeydə alınır.

Dairə ərazisindəki 62 seçki məntəqəsi texniki təchizatla təmin olunub. Artıq səsvermə kabinələri də quraşdırılıb. Seçicilər məntəqədə asılmış seçici siyahıları ilə sərbəst şəkildə tanış olub, adlarını tapa bilərlər.

DSK sədri aşağı seçki komissiya üzvlərinin treninqlərdə iştirakından da söhbət açaraq dedi ki, bu, cox vacibdir: "Çünki treninqlərdə hər şey əyani nümayiş etdirilir. Bu da komissiya üzvlərinə seçki prosesində qarşılaşa biləcəkləri problemlərin aradan



həyata keçiririk.

Ərazidə 44 daimi seçki məntəqəsinin fəaliyyət göstərdiyini qeyd edən dairə sədri dedi ki, məntəqələrin seçkilərə hazırlığı ilə bağlı hər hansı problem yoxdur. Onun sözlərinə görə, seçicilərin sayı 50 minə yaxındır. Onlardan 446 nəfər ilk dəfə səs verəcək. Ən yaşlı seçicinin 100 yaşı var.

V. Əliyev namizədliyi qeydə alınanların seçiciləri ilə görüşmələri üçün qapalı və açıq yerlərin müəyyənləşdirildiyini bildirdi. Dedi ki, hər bir namizədin bərabər səviyyədə təbliğat – təşviqat aparması üçün məntəqə seçki komissiyalarının qarşısında dəmir lövhələr quraşdırılıb. Səsverməyə əlil arabalarında gələnlər də unudulmayıb. Hansı seçki məntəqəsində belə hal olarsa, qabaqcadan müəyyənləşdirilib orada panduslar quraşdırılacaq.

## Ağsu

**90 saylı Ağsu seçki dairəsinin sədri Azad Dursunəliyev 20 ilə yaxındır ki, seçki prosesi ilə məşğuldur. Bu illər ərzində onun rəhbərlik etdiyi dairənin ərazisindəki seçki məntəqələrində seçkinin nəticəsinə təsir edə biləcək qanun pozuntusu qeydə alınmayıb. Komissiya sədri bu seçkilərin də ədalətli şəkildə başa çatacağına əmin olduğunu dedi:**

– Növbədənkənar parlament seçkiləri qaldırılmasında kömək edəcək. Biz seçkiyə hazırıq. İnanıram ki, ötən seçkilərdə olduğu kimi, bu dəfə də seçicilər mütəşəkkil şəkildə səsvermə məntəqələrinə gələcək və istədikləri namizədə səs verəcəklər.



**Fatimə Əlizadə:** – Növbədənkənar parlament seçkiləri mənim üçün daha çox yadda qalan olacaq. Artıq 18 yaşım tamam olub və seçkilərdə iştirak etmək hüququm var. Mən ilk dəfə səs verəcəyəm. Belə bir siyasi kampaniyaya qoşulduğum üçün çox sevinirəm.



**Səid İsmayılov:** – Mən də sevinirəm ki, artıq seçkilərə qoşuluram. Səsvermədə iştirak etmək hər bir vətəndaşımızın hüququdur. Mən də öz hüququmdan ilk dəfə istifadə edəcəyəm və istədiyim namizədə səs verəcəyəm.

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Naxçıvanda MSK və DİN-in birgə tədbiri



**Naxçıvanda bu il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində seminar-müşavirə keçirilib.**

Tədbirdə əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Seminar-müşavirədə MSK və DİN nümayəndələri, muxtar respublika üzrə 6 seçki dairəsinin dairə seçki komissiyalarının sədrləri, polis idarələri və şöbələrinin əməkdaşları iştirak ediblər.

Mərkəzi Seçki Komissiyasının üzvü İlham Məmmədov Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında Azərbaycan cüdoçusu Hidayət Heydərovun fransalı Con Benjamin Qabanı məğlub edərək qızıl medal qazanması münasibətilə təbriklərini çatdırıb, seminar-müşavirənin əhəmiyyətindən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai təhlükəsizlik idarəsinin rəisi Cavid Cəfərov Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrindən danışıb.

Sonra Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi ilə bağlı çıxış edib.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsində idarə rəisi Sənan Əliyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərin və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi barədə məlumat verib.

# "ASAN xidmət" mərkəzlərində innovativ layihə istifadəyə verilib

**Sentyabrın 1-də keçiriləcək Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların səsvermə hüquqlarının daha səmərəli təmin olunması üçün "ASAN xidmət" mərkəzlərində mütərəqqi və səmərəli bir vasitənin tətbiqi davam etdirilir.**

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən bildiriblər ki, innovativ həll MSK-nın və "ASAN xidmət"in birgə layihəsi çərçivəsində həyata keçirilir. Vətəndaşlar mərkəzlərdə olan "ASAN növbə" terminallarındakı "Seçici statusunu yoxla" adlı funksional bölmədə şəxsiyyət vəsiqələrini oxudaraq adlarını seçici siyahılarında yoxlaya, habelə aid olduqları seçki dairəsi və məntəqəsini müəyyənləşdirə bilərlər.

Məlumatlar sistemdə əks olunmadığı təqdirdə açılan yeni ekranda əlaqə məlumatları daxil edilməklə yerindəcə MSK-ya müraciət etmək imkanı da təmin olunur.

Gün ərzində "ASAN xidmət"ə 40 minə yaxın vətəndaş müraciəti daxil olur. Vətəndaşlarımız növbə götürərkən eyni vaxtda bu sistemdən istifadə etməklə harada səs verməli olduqlarını operativ şəkildə dəqiqləşdirə bilərlər.

# Liderlik missiyası

III MƏQALƏ

**Liderlik insanlara öz ideyalarını həyata keçirmək imkanı yaratmaq məharətidir.**

**Set QODİN**



## Liderlikdə tarixilik və ideyalılıq

Liderlik strategiyasında milli ideyaya xüsusi önəm verməsi məsələsində Henri Kissincerlə tam razılaşırıq. Çünki liderlik o zaman tarixi olur ki, onun daşıdığı ideya tarixi dövrün məzmunu və məqsədi ilə uyğunluq təşkil edir. Məsələnin bu tərəfi xeyli politoloji və fəlsəfi mürəkkəbliyə malikdir və izaha ehtiyacı vardır.

Aydındır ki, liderlikdə tarixilik adi xronologiya və ya zaman fokuslanması deyildir. Burada "tarixilik" liderin fəaliyyət göstərdiyi dövrdə onun zaman ritmini tutaraq, uğurlu yol seçməsi, qarşısına real məqsəd qoyması və ona nail olmağın səmərəli mexanizmlərini tapmasıdır.

Nümunə kimi, Atatürkün dünyanın bütün liderlərindən fərqli olaraq dövründə zamanın ritmini dəqiq tutmasını və bu əsasda Vətəni üçün uğurlu olan yolu müəyyən etməsini göstərə bilərik. Atatürk Qərb liderlərinin görə bilmədiyi situasiyanı öz ölkəsinin maraqları prizmasında aydın gördü. Buna uyğun olaraq, türk millətinin tarixi mübarizə ruhunu qiymətləndirdi və onu savaş meydanına qorxmadan, inamla, çəkinmədən apardı. Atatürkün milli ideyası "Türk milləti istila altında yaşaya bilməz!" prinsipi idi. Onu həmin dövrdə Uinston Çörçill qədər dərindən anlayan ikinci siyasi lider olmadı. U.Çörçill, bəlkə də, zahirən kədərli, lakin uzaqgörən lider kimi daxili səmimi etirafı ilə bir dəfə demişdi: "Biz, Atatürkdən başqa hər şeyi nəzərə almışdıq!"

Atatürk savaşdan sonra da milləti üçün milli ideyanı müəyyən etdi: "Yurdda sülh, cahanda sülh!" Bu ideya artıq müstəqil və qürurlu türk dövlətinin ənənəyə uyğun olaraq daxili sabitliyi, düzəni və tərəqqini bütün dünyaya yaymaq istəyinin bir cümlədə ifadəsi idi!

Başqa bir nümunə Heydər Əliyevdir. Ərazicə kiçik olan bir ölkəni tarixi baxımdan qısa bir müddətdə regionun perspektivli müstəqil dövlətinə çevirdi. Bunu "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir!" milli ideyası ilə etdi! Bəlkə də dünya tarixində Heydər Əliyev qədər çətin şərtlər altında liderlik edən ikinci şəxs olmayıb. Demək olar ki, eyni vaxtda Heydər Əliyev həm özünü, həm də çox sevdiyi Vətənini yenidən yaratdı. Moskvada və Bakıda aldığı müxtəlif zərbələrdən nəinki əyilmədi, onları özü üçün yeni gücə, qüvvətə və iradəyə çevirdi.

Heydər Əliyev bu nümunəsi ilə dünya liderlik tarixində həmişə öz yerini tutacaqdır. Eyni zamanda, Heydər Əliyevin tarixi liderliyini anlamaq üçün böyük əhəmiyyəti olan özündən sonra yeni tarixi lider hazırlamasından ibarətdir. XX əsrdə ikinci belə bir nümunə yoxdur.

Nəhayət, liderliyn tarixiliyi haqqında H.Kissincerin yazdıqları kontekstində Sinqapurun keçmiş başçısı Li Kuan Yunu xatırlamaq olar. O, Sinqapuru müstəmləkədən qısa müddətdə azad edərək inkişaf paradiqması əsasında yeni milli ideya ilə sürətli inkişaf xəttinə çıxara bildi. İndiyə qədər də Sinqapur Li Kian Yunun inkişaf paradiqmasına uyğun tərəqqidədir. Orada yalnız yeni milli ideya yaradan hələ yoxdur. Bu da o deməkdir ki, Sinqapur Li Kian Yunun inkişaf paradiqması üzrə onun müəyyən etdiyi ideya çərçivəsində yoluna davam edir.

Belə alınır ki, tarixi liderlikdə milli ideya əsas hərəkətverici və motivəedici faktordur. Eyni zamanda, burada başqa bir prinsipial şərt də vardır. Milli ideya tarixi uğurluluq baxımından birbaşa strategiya məsələsinə bağlıdır. Liderliyin tarixiliyi ancaq strateji kontekstdə real məzmun ala bilir. Çünki tarixilik həm bir dövrü, həm də fəaliyyətin nəticələri baxımından uzun müddəti əhatə edir. Ona görə də liderliyin stratejisi liderliyin tarixiliyinin başlıca təminedici faktorudur. Burada "tarixilik" anlayışı kontekstində bir paradoks vardır.

## Liderlik stratejisi və milli ideya

Paradoks ondan ibarətdir ki, lider eksklüziv fəaliyyətində, adətən, keçmişə aid olan tarixiliyi elə müasirləşdirməlidir ki, qarşıya qoyulan strateji hədəfə çatmaqda "tarixi rol" oynasın. Tarixi yalnız keçmiş təcrübə kimi deyil, müasir aktual faktor kimi gerçəkləşdirmək isə yalnız liderliyin düzgün strategiyasını müəyyən etməklə mümkün olur. Eyni zamanda, istənilən halda lider özündə mənsub olduğu cəmiyyətin keçmişlə bağlı "tarixiliyini daşıyır". Deməli, təməldə lider mütləq tarixiliyin hər iki aspektinin harmoniyasına nail olmalıdır. Bu məqamda tarixiliyin strategiyə, strategiyanın isə tarixiliyə ciddi qarşılıqlı ehtiyacı məsələsi ortaya çıxır.

Liderin tarixi xidmətlərindən biri də elə strategiya hazırlamasıdır ki, o, daim keçmişi özündə daşımaqla milləti gələcəyə istiqamətləndirsin. Burada isə tarixi, sosial, kültürəl məqamlarla yanaşı, topluma xas olan kollektiv psixoloji özəlliklə yanaşı, fərdi psixologiyanın nisbəti aktuallaşır. Azərbaycan cəmiyyətində bunun xüsusi məzmunu vardır. Bir elmi araşdırmanın işığında həmin aspektdə bir sıra məqamları aydınlaşdırmaq mümkündür.

Holland sosioloqu Hert Hofsted XX əsrin 60-70-ci illərindən başlayaraq 2003-cü ilə qədər mədəni faktorların cəmiyyətin üzvlərinin dünyagörüşünə, psixologiyasına, o cümlədən zaman təsəvvürlərinə təsirlərini eksperimental öyrənmişdir. O bir sıra mədəniyyət və sosial-psixoloji məqamlara nəzər salmışdır. Bura qeyri-müəyyənlikdən cəmiyyətin qaçışı, zamana münasibəti (keçmişə, indiyə və gələcəyə), uzunmüddətli istiqamətlənmə qətiyyəti, strateji təfəkkür və s.

H.Hofsted araşdırmasını həmkarları ilə birgə İBM şirkətinin 40 ölkədəki ofislərində çalışan və müxtəlif millətlərdən olan 116 min işçi üzərində aparmışdır. Detallara getmədən qısa nəticələrə baxaq. Məlum olmuşdur ki, xalqların zamana münasibəti onun üzvlərinin həyat psixologiyasına ciddi təsir edir. Qeyri-müəyyənliyi sevməyən xalqlarda keçmişə bağlılıq yüksək olur. Onlar ailə, qruplararası münasibətlərə üstünlük verirlər. Bununla yanaşı, onlarda uzagörənlik inkişaf etmiş olur. Strateji təfəkkür geniş yayılmasa da, güclü ola bilir. Eyni zamanda, keçmişinə çox bağlı olan toplum yeni ideyaları asan qəbul etmir. Bunun üçün onu yüksək səviyyədə inandırmaq və yeniliyin ədalətli olduğuna əminlik yaratmaq gərəkdir.

Bundan başqa, araşdırma göstərmişdir ki, hakimiyyətlə insanlar arasında "psixoloji məsafə" də kollektiv qərarlar qəbul edilməsində ciddi rol oynayır. Hakimiyyətlə xalqın yaxın olduğu şərtlərdə yeni ideyaya keçid asan olmur. Məsələ inamsızlıqda deyildir, məsələ liderlə özünü bütövləşdirən toplumun yeni ideoloji mövqedə meydana gələ biləcək qeyri-müəyyənlikdən çəkinməsindədir.

Daha dərinliklərə baş vurmadan siyasət baxımından əhəmiyyəti olan bir məqamı da vurğulayaq. Kollektivçiliyin üstünlük təşkil etdiyi cəmiyyətləri universal uğurlu kollektivçilik modelinə gətirmək olmur. Bunun səbəbi kollektiv davranış haqqında hər cəmiyyətin öz təsəvvürlərinin olmasıdır. Yapon kollektivizmində kollektiv davranışın təməlində cəmiyyət qarşısında borc hissinin olması dayanır – "Yapon xalqa borcludur" bir mənəviyyat prinsipidir. Çində isə kollektiv davranışın kökündə ailə qarşısında borc hissi dayanır. Buna görə də yapon şirkəti çinlinin ailə maraqlarını şirkətin maraqlarından üstün tutması səbəbindən ona inanmır!

Azərbaycan cəmiyyətinin bütün bu parametrlər üzrə öz kriteriyaları mövcuddur. Azərbaycanlı həm ailəsinə, həm də Vətəninə bağlıdır. Bizim kollektiv davranışlarımızı hər iki faktorun qarşılıqlı əlaqəsi motivə edir. Zamana münasibətdə keçmişə daha çox bağlıyıq. Ona görə də qeyri-müəyyənliyi sevmirik – hər şey aydın, dəqiq və konkret əxlaq çərçivəsində olmalıdır. Azərbaycanlılar öz hakimiyyətlərini çox yaxın qəbul edirlər. Onunla psixoloji olaraq bütövləşdiklərini təsəvvür edirlər. Bu da təbii olaraq kollektiv miqyasda ədalət anlayışını ön plana çıxarır. Azərbaycanlılar ədaləti bütün toplum miqyasında qəbul edirlər. Onlar bu səbəbdə istənilən növ ədalətsizliyə, ilk növbədə sosial, siyasi, dini və əxlaqi ədalətsizliyə çox həssas yanaşırlar.

Bu şərtlr daxilində Azərbaycanda milli ideyanı düzgün müəyyən etməklə yanaşı, onu yeniləşdirmək də olduqca çətin məsələdir. Ulu öndər Heydər Əliyev öz dövründə bunu dəqiq nəzərdə tutmuşdur. Çünki hər bir azərbaycanlı üçün ərazi bütövlüyünün təmini həm şəxsi, həm də kollektiv miqyaslarda ən ədalətli hadisə olmalı idi. Azərbaycanlılar Qarabağın azad edilməsini ədalətin bərpası kimi qəbul edirlər. Burada həm keçmişə, həm də gələcəyə hörmət hissi azərbaycanlılarda dərindədir. Çünki torpaqları azad etməklə həm də keçmişi azad etmiş oluruq. Gələcək isə təmiz keçmiş üzərində azərbaycanlı üçün perspektivlidir.

Bütün bu nəticələrin əldə olunması üçün azərbaycanlılar kollektiv səviyyədə inamlı, yüksək qabiliyyətli, qətiyyətli strateji təfəkkürə malik liderin mövcudluğuna tam inandılar. Onlar əmindirlər ki, strateji təfəkkür olmadan qalıcı uğur əldə etmək mümkün deyildir. Ulu öndərin strateji zəkası azərbaycanlıların bu inamını daha da artırdı.

## Nəticə

Qısa sosial-psixoloji xarakteristikadan tarixi liderlik kontekstində iki mühüm nəticə çıxarmaq olar. Onlardan biri yeni tarixi mərhələdə yeni milli ideyanın cəmiyyət tərəfindən qəbul edilməsidir. Digəri liderin strateji zəkasının təsir dərəcəsinin miqyasıdır. Fikrimizcə, bu iki komponentin qarşılıqlı əlaqəsi yeni tarixi mərhələdə liderliyin tarixiliyini məzmunlaşdıran başlıca faktorlar olacaqdır.

Yeni milli ideyanın cəmiyyət tərəfindən qəbul edilməsinin də iki tərəfi vardır. Birincisi, yeni milli ideya ictimai fikrin və psixologiyanın xüsusyyətlərinə uyğun olmalıdır. İkincisi, toplum onun həyata keçməsinin real olacağına inanmalıdır. Birinci aspektlə bağlı Prezident İlham Əliyev çox uğurlu addım atmışdır. Bu addım dövlət başçısının milli ideyanı cəmiyyətin geniş müzakirəsinə çıxarması ilə əlaqəlidir. Proseslər göstərir ki, toplum mövzuya həssaslıqla yanaşır və çox sayda təkliflər meydana gəlmişdir.

Azərbaycan cəmiyyəti artıq yeni milli ideyanın zəruriliyinə tam inanır və onun dəqiq müəyyənləşdirilməsini gözləyir. Bu, olduqca müsbət məqamdır. Çünki cəmiyyət liderin ölkənin və dövlətin gələcəyi ilə bağlı mövqeyini qəbul etməklə yanaşı, bu istiqamətdə atacağı addımları da dəstəkləyir.

Bu, dövləti idarəetmə mexanizmlərini inkişaf etdirməkdən tutmuş, parlamentdə yeniliklərin aparılması və sosial-iqtisadi sahədə həyata keçiriləcək proqramlara qədər bütün sferaları əhatə edir. Bununla milli ideyanın yenilənməsi faktoru Azərbaycan Prezidentinin lider kimi fəaliyyətinin inklüziv legitimliyi olan proses olaraq toplum tərəfindən qəbul edilməsidir. Sonrakı, daha məsuliyyətli mərhələ üçün, yəni yeni milli ideyanı tam reallaşdırmaq dövrü üçün möhkəm təməldir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qayıdışın növbəti ünvanı Kərkicahandır!

**(əvvəli 1-ci səhifədə)**

2023-cü il oktyabrın 15-də Ağdərə, Xocalı və Xankəndidə müqəddəs üçrəngli bayrağımızı ucaldan Azərbaycan Prezidenti həmin gün Kərkicahan qəsəbəsində də oldu və dövlət başçısının tapşırığına əsasən, qısa vaxtda burada bərpa-quruculuq işlərinə başlandı. Hazırda ilkin mərhələdə 50 fərdi yaşayış evinin bərpası və zəruri infrastrukturun yaradılması istiqamətində işlər sürətlə davam etdirilir, kərkicahanlılar isə ən qısa zamanda həmişəlik öz yeni ev-eşiklərinə dönəcəkləri günün həyəcanını yaşayırlar.

Böyük Qayıdış ərəfəsində hansı hisslər keçirdiklərini öyrənmək, onların sevincinə şərik olmaq üçün bugünlərdə Gəncə şəhərində Kərkicahan sakinlərinin kompakt məskunlaşdıqları yataqxanalarda olduq, keçmiş məcburi köçkünlərlə görüşdük. Söhbət zamanı kərkicahanlılar bildirdilər ki, öz ata-baba yurdlarına qayıdacaqları günü uşaqdan böyüyə hamı bir nəfər kimi səbirsizliklə gözləyir.



Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunmasının, dövlət başçımızın ifadə etdiyi kimi, tarixi ədalətin bərpa edilməsinin əvəzolunmaz duyğular bəxş etdiyini vurğulayan sakinlərdən bir neçəsi artıq Kərkicahana getmək, o müqəddəs torpaqları yenidən görmək və qəsəbədə aparılan tikinti işləri ilə tanış olmaq imkanını qazanıblar. Necə deyərlər, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır. İndi kərkicahanlılar hamılıqla əmindirlər ki, möhtərəm Prezidentimizin diqqəti və qayğısı sayəsində ata-baba yurdlarındakı evləri tezliklə, özü də yüksək keyfiyyətlə tikilib, təmir olunub onların istifadəsinə veriləcək.

Qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Dərgah Haqverdiyev sakinlərin sevinclə Böyük Qayıdışa hazırlaşdıqlarını bildirdi: "2546 nəfər kərkicahanlıdan 942 nəfəri, yəni 276 ailə 33 ildir ki, Gəncə Dövlət Kollecinin və Gəncə Dövlət Universitetinin yataqxanalarında məskunlaşıb: "Biz uzun illər ağır yataqxana şəraitində yaşasaq da, hər zaman dövlətin qayğısını hiss etmişik və Prezident İlham Əliyevin Qarabağı, Şərqi Zəngəzuru erməni işğalından azad edəcəyinə ümidimizi itirməmişik. İndi Kərkicahana qayıdış ərəfəsində sevincimizin həddi-hüdudu yoxdur. Təsəvvür edin ki, son günlər nümayəndəliyə edilən bütün müraciətlər eyni məzmundadır: Biz tezliklə öz yurdumuza qayıtmaq istəyirik!".

Tarixi zəfərimiz sayəsində məkanı uca, müqəddəs şəhidlərimizin də qisası alındı, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş minlərlə Vətən övladının ruhu dinclik tapdı, şəhid ailələrinin yanan ürəklərinə su çiləndi. Qeyd edək ki, Kərkicahan qəsəbəsi yağı düşmənlə savaşda 34 şəhid verib. Yataqxanalarda müvəqqəti məskunlaşmış sakinlər arasında şəhid ailələrinin də yaşadığını öyrəndikdə onlarla görüşməyi özümə borc bildim. Qonağı olduğum I Qarabağ müharibəsi veteranı Ayaz Səlimov dedi ki, qardaşı, 1970-ci il təvəllüdlü Rafael Səlimov erməni vəhşiliyinin ilk qurbanlarından olub.



Hələ 1988-ci ildə Qarabağda separatizmin təzahürləri yeni-yeni özünü göstərməyə başlayanda Xankəndidəki Qarabağ İpək Kombinatında fəhlə işləyən Rafael ermənilər tərəfindən vəhşicəsinə döyülərək zirzəmiyə salınıb. Onu çox çətinliklə xilas etmək mümkün olub. Ancaq məcburi köçkün düşdükdən sonra torpaqlarımızın işğalı ilə barışmayan Rafael polis sıralarına daxil olub və Şuşa polis batalyonunun tərkibində cəbhə xəttinə qayıdıb. 1994-cü il yanvarın 5-də Ağdərə rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Atası Elyas kişi də, anası Şəfiqə də övladlarının itkisinə dözməyərək vaxtsız dünyalarını dəyişiblər. İndi Ayaz Səlimov torpaqlarımızın işğaldan azad edilməsi, Kərkicahana tezliklə köçün başlaması qədər də qardaşının qanının alınmasına sevinir. Sevinir ki, qisas qiyamətə qalmadı...

Ayazla söhbətimizə qonşuluqda yaşayan şəhid ailəsinin üzvü, həyat yoldaşı Vəkil Şükürov 1991-ci il dekabrın 28-də, Kərkicahanın işğal günü ermənilər tərəfindən xüsusi qəddarlıqla qətlə yetirilmiş Sevil Şükürova da qoşuldu. Bildirdi ki, yaşadıqları acı günləri unutmaq mümkün olmasa da, o da Kərkicahana qayıdacağı üçün sonsuz sevinc içindədir: "Həyat yoldaşım Şuşada Şərq musiqi alətləri fabrikində usta işləyirdi. Hadisələr başlayandan sonra gündüzlər işə gedir, axşam qayıdandan sonra isə digər kişilərlə birlikdə postda dayanıb qəsəbəni erməni quldurlarından qoruyurdu. Kərkicahanın işğal edildiyi gün şəhid oldu. Ermənilər onu ələ keçirib işgəncə vermişdilər. Başına, bədəninin müxtəlif yerlərinə vəhşicəsinə küt alətlərə zərbələr endirib, sonra da güllələmişdilər. Bu gün artıq onun da ruhu şaddır. Allah Prezidentimizi qorusun, Ordumuzu var etsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin!".

S.Şükürova bir arzusunu da dilə gətirdi. Bildirdi ki, əgər Şuşada həmin fabrik yenidən yaradılarsa, orada şəhid həyat yoldaşının xatirəsinin əbədiləşdirilməsi ailəsi və bütün kərkicahanlılar üçün böyük təsəlli olardı.

Gəncədə məskunlaşmış daha bir Kərkicahan sakini, istefada olan polis polkovnik-leytenantı Təranə Şahmuradova ilə həmsöhbət olmağımın isə xüsusi bir səbəbi vardı. Çünki Şahmuradovlar Qarabağ müharibəsinin bütün dəhşətlərini yaşayıb, ailə 3 övladını itirib: 1992-ci il may ayının 8-də Şuşanın müdafiəsi zamanı Təranə xanımın qardaşı Natiq şəhid olub, digər qardaşı Namiq itkin düşüb. Elə həmin il noyabrın 8-də isə həyat yoldaşı Tahir Zeynalov da Ağdərə istiqamətində gedən döyüşlərdə Vətən yolunda şəhidlik zirvəsinə ucalıb. Bu qədər ağır itkilərə rəğmən, T.Şahmuradova əzmini itirməyib, şəhid və itkin qardaşlarının yolunu davam etdirmək üçün polis olmağa, bununla özünü ovutmağa, sakitləşdirməyə qərar verib. Təranə xanım bu arzusuna Ümummilli lider Heydər Əliyevin diqqəti və qayğısı sayəsində çata bilib.

Uzun illər polis orqanlarında ləyaqətlə xidmət etmiş Təranə xanım qüdrətli ordumuzun şanlı qələbələrindən bütün xalqımız kimi qürur, fəxarət hissi keçirdiyini qeyd edərək bildirdi ki, indi iki arzum qalıb: "Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Xankəndidə bayrağımızı ucaldanda, Kərkicahana gedəndə keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyildi. Sevinc və həyəcan boğurdu məni. Xoşbəxtəm ki, Vətənim sevinc içindədir, şəhidlərimin qanı axdığı torpaqlarımız azaddır. İndi ən böyük arzum Kərkicahana qayıdıb orada ata yurdunun çırağını yandırmaqdır, itkin düşmüş qardaşım Namiqin taleyindən xəbər tutmaqdır...".

İnanırıq ki, tezliklə Kərkicahanda evlərin ocaqları qalanacaq, işıqları bir daha sönməyəcək. Cavanşirlər və Həsənbəylər nəsillərinin övladları yenidən doğma torpaqlarının əbədi sakinlərinə çevriləcəklər.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

# Azərbaycan investisiya reytinqində də öndədir



**Bu gün beynəlxalq reytinq agentlikləri tərəfindən respublikamızın gələcək inkişaf gözləntisini ifadə edən müsbət göstəricilərin vurğulanması təsadüfi deyil. Çünki hazırda Azərbaycanın malik olduğu resurslar iqtisadi yüksəlişin dinamikliyini şərtləndirir və bu potensial böyük miqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinə, xüsusilə işğalçıdan təmizlənən ərazilərdə bərpa-quruculuq işlərinin sürətlə davam etdirilməsinə imkan verir.**

Prezident İlham Əliyev ölkəmizin nail olduğu inkişaf səviyyəsi haqqında bildirib: "Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, heç kimdən iqtisadi və siyasi cəhətdən asılı deyil". Həqiqətən də, dövlətimizin başçısının rəhbərliyi ilə reallaşdırılan iqtisadi siyasət nəticəsində respublikamızın enerji təhlükəsizliyi təmin edilib, ölkə əhalisinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatının etibarlılığı, eyni zamanda, dayanıqlılığı gücləndirilib.

Dövlət başçısın rəhbərliyi ilə gerçəkləşdirilən məqsədyönlü, uğurlu xarici və daxili siyasət sayəsində Azərbaycanın beynəlxalq nüfuzu daha da artıb, iqtisadi fəallığın təmin edilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, düşməndən təmizlənən yaşayış sahələrinin yenidən bərpası, müdafiə və ordu quruculuğu, ərzaq təhlükəsizliyinin diqqətdə saxlanılması istiqamətlərində mühüm layihələr yerinə yetirilib.

Azərbaycanın sosial-iqtisadi sahələrdə əldə etdiyi uğurlar, eləcə də ölkədə həyata keçirilən iqtisadi islahatlar, rəqabətədavamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl addımlar dünyanın aparıcı iqtisadi-maliyyə institutlarının, iqtisadi azadlıq səviyyəsini tədqiq edən mərkəzlərin, o cümlədən "Fitch Ratings" beynəlxalq kredit reytinqi agentliyinin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Ümumiyyətlə, beynəlxalq reytinq agentliklərinin proqnozları bir daha təsdiqləyir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirləri və kapital xərcləri, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olur və bütün bunlar dövlətimizin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən, Azərbaycanın uğurlu gələcəyindən xəbər verir.

Bu gün dünyada baş verən mürəkkəb siyasi-iqtisadi hadisələr fonunda qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlinməsi, iqtisadi inkişafın sürətləndirilməsinə, xalqın rifahının yaxşılaşdırılmasına yönələn proqramların həyata keçirilməsi qarşıdakı dövr ərzində də yüksək göstəricilərin əldə ediləcəyi əminliyi yaradır.

"Fitch Ratings" beynəlxalq kredit reytinqi agentliyi ölkəmizin xarici valyutada uzunmüddətli emitentin defolt reytinqini sabit proqnozla "BB+"dan "BBB-"yə yüksəldib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin iqtisadi təhlil şöbəsinin müdiri Günay Quliyeva bildirib ki, bu göstərici Azərbaycanın iqtisadi dayanıqlığını və güclü xarici iqtisadi tarazlığını vurğulayır, investisiya və iqtisadi artım üçün perspektivli gələcəyə işarə edir.

G.Quliyevanın sözlərinə görə, reytinq agentliyinin məlumatında Azərbaycanın suveren xarici valyuta aktivlərinin 2024-cü ildə 74 milyard ABŞ dollarına çatacağı bildirilir ki, bu da proqnozlaşdırılan ÜDM-in 98 faizini təşkil edir. Xatırladaq ki, bu ehtiyatların əsas hissəsi Azərbaycan Dövlət Neft Fonduna (ARDNF) məxsusdur. Aktivlərin yüksək səviyyəsi Azərbaycanın xalis suveren aktiv mövqeyinin BBB və A reytinqli suverenlər arasında ən yüksək mövqedə qalmasını gerçəkləşdirir.

Hesabatda göstərilir ki, cari əməliyyatlar hesabı profisitinin azalacağı proqnozuna baxmayaraq, Azərbaycan yüksək neft və qaz gəlirləri ilə dəstəklənən BBB kateqoriyasında liderliyini davam etdirəcək. "Fitch Ratings"də ölkəmizin xalis xarici kreditor mövqeyinin 2024-cü ildə ÜDM-in 154 faizinə qədər möhkəmlənəcəyi və "BBB" suverenləri arasında ən güclü olacağı gözlənilir.

İİTKM-in şöbə müdirinin fikrincə, agentlik Azərbaycanın davamlı büdcə profisiti və dövlət maliyyəsində neftdən asılılığın azaldılması öhdəliyini qoruyan fiskal siyasətini davam etdirəcəyini proqnozlaşdırır. Agentliyin ekspertlərinin təhlilinə əsasən, gücləndirilmiş suveren xarici buferlər və ehtiyatlı fiskal siyasət respublikamızın xarici şoklara və neft qiymətlərinin dəyişkənliyinə qarşı dayanıqlığını artırır, Azərbaycan Respublikası Mərkəzi Bankının daxili likvidliyi və valyuta tələbini idarə etmək qabiliyyətini yüksəldir.

Hesabatda hökumət borcunun 2026-cı ilə qədər aşağı səviyyədə qalaraq ÜDM-in 22,7 faizinə qədər artacağı proqnozlaşdırılır. Bununla yanaşı, hökumət tərəfindən aparılan nəzarət tədbirlərinin effektivliyi vurğulanaraq inflyasiyanın 2024-cü ildə hədəf inflasiyadan aşağı səviyyədə – orta hesabla 3,5 faiz olacağı güman edilir. Qarabağın bərpasının müsbət təsirləri səbəbindən iqtisadi artımın tsiklik olaraq 3,2 faizə qədər bərpa olunduğu qeyd olunur.

G.Quliyeva vurğulayıb ki, Azərbaycanın Ekoloji Sosial Korporativ Məsuliyyət (ESG) Uyğunluq Reytinqləri siyasi sabitliyin, qanunun aliliyinin və korrupsiyaya nəzarətin onun kredit profilinə əhəmiyyətli təsirini əks etdirir. Hesabatda Azərbaycanın idarəetməni təkmilləşdirməsi və iqtisadiyyatın diversifikasiyası üzrə öhdəlikləri yüksək qiymətləndirilir.

Qeyd edək ki, suveren kredit reytinqindəki bu artım Azərbaycanın iqtisadi strategiyasının bir neçə kritik aspektini vurğulayır. ARDNF tərəfindən qorunan xarici tarazlıq ölkəmizin güclü maliyyə idarəçiliyini və ehtiyatlı fiskal siyasətini nümayiş etdirir. Proqnozlaşdırılan cari əməliyyatlar hesabının profisiti, hətta aşağı neft qiymətləri olsa belə, sabitliyi və artımı qoruyub saxlaya bilən dayanıqlı iqtisadiyyatdan xəbər verir.

Büdcə profisitinin davam etməsi və dövlət borcunun aşağı olması hökumətin makroiqtisadi sabitliyin qorunmasına və neft gəlirlərindən asılılığın azaldılmasına sadiqliyini nümayiş etdirir. Bu strateji yanaşma iqtisadiyyatı xarici şoklardan qorumaqla yanaşı, davamlı inkişafın əsasını qoyur.

İİTKM-in şöbə müdiri yekun olaraq qeyd edib ki, "Fitch Ratings" tərəfindən ölkəmizin suveren kredit reytinqinin yüksəldilməsi Azərbaycanın sabit iqtisadi vəziyyətini və maliyyə sağlamlığını vurğulayır, eləcə də onu gələcək investisiyalar üçün cəlbedici istiqamətə çevirir. Güclənmiş xarici tarazlıq, davamlı büdcə profisiti və aşağı dövlət borcu müsbət investisiya mühitini formalaşdırmaqla investorları ölkəmizdə imkanları araşdırmağa həvəsləndirir.

# ÜDM istehsalı 121,3 milyard manata çatacaq

**2024-cü ildə ölkəmizdə ümumi daxili məhsul (ÜDM) istehsalının real artımı 3,8 faiz olmaqla nominal ifadədə 121,3 milyard manata çatacağı gözlənilir. Bu, dövlət büdcəsinin layihəsinin tərtibi zamanı təqdim edilmiş proqnoza nəzərən 3 milyard manat çoxdur.**

Maliyyə Nazirliyinin cari ilin sonuna olan gözləntiləri ilə bağlı arayışında daha sonra deyilir: "Qeyri-neft ÜDM-i 84,7 milyard manat (əvvəlki proqnoza nəzərən 0,6 milyard manat çox) səviyyəsində gözlənilir. Qeyri-neft-qaz sektoru üzrə ÜDM-in real artım tempinə dair proqnoz 4,6 faizdən 5,5 faizə qaldırılıb".

Arayışda, həmçinin qeyd edilir ki, 2023-cü ilin oktyabr ayında cari ilin dövlət büdcəsi layihəsinə baxılarkən İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunan proqnozlara əsasən, ÜDM 118,4 milyard manat, qeyri-neft–qaz ÜDM-I 84,2 milyard manat, real artım tempi isə müvafiq olaraq 2,4 faiz və 4,6 faiz səviyyəsində idi. Lakin 2023-cü ildə istehsal olunan ÜDM-in ehtimal edildiyindən artıq olması, 2024-cü ilin ilk 6 ayında qeydə alınan makro-fiskal nəticələr, eləcə də qlobal miqyasda iqtisadi artımla, eyni zamanda, enerji daşıyıcılarının qiymətləri ilə bağlı bu ilin sonuna gözləntilər cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndirib.

Maliyyə Nazirliyinin bildirdiyinə görə, 2024-cü ildə qlobal artım üzrə Beynəlxalq Valyuta Fondu tərəfindən cari ilin iyul ayında verilmiş proqnoz aprel ayına nəzərən dəyişməz saxlanılıb (3,2 faiz), Dünya Bankı isə cari ilin iyun ayında qlobal artım proqnozunu ilkin təqdim edilən proqnozla müqayisədə 0,2 faiz artıraraq 2,6 faiz səviyyəsində müəyyənləşdirib. Bu ilin ilk yarısında geosiyasi-geoiqtisadi gərginliyin və ticari fraqmentasiyaların hökm sürməsi, qlobal əmtəə bazarlarında qiymət tərəddüdlərinin müşahidə olunması, nəhayət, disinflyasiya meyillərinin zəifləməsi qlobal iqtisadi gözləntilərlə bağlı qeyri-müəyyənliyə təsir edən amillər olub.

Beynəlxalq maliyyə institutları və agentliklərinin son proqnozlarına əsasən, xam neftin bir barelinin orta illik satış qiymətinin 75-85 ABŞ dolları civarında olacağı proqnozlaşdırılır. 2024-cü ilin dövlət büdcəsinin hesablamaları üçün 60 ABŞ dolları səviyyəsində qəbul edilmiş xam neftin bir barelinin orta illik ixrac qiyməti dövlət büdcəsinə yenidən baxılma ilə 75 ABŞ dolları səviyyəsinə artırılıb.

Cari ilin ilk 6 ayında ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyər 59 milyard 520,4 milyon manat olub, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 4,3 faiz artım qeydə alınıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat dövründə qeyri-neft–qaz sektorunda ÜDM-in həcmi 6,9 faiz artaraq 38 milyard 798 milyon manata bərabər olub. İqtisadiyyatın neft-qaz sektorunda isə real artım 0,6 faiz olub. İlin ilk yarısında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əmtəəlik qaz hasilatı 5,3 faiz artsa da, əmtəəlik neft hasilatında 4,9 faizlik azalma qeydə alınıb. Qeyri neft-qaz sektorunda isə 6,9 faiz artıma nail olunub.




Xatırladaq ki, hesabat dövründə ÜDM istehsalının 38,5 faizi sənaye, 9,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 5,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 19,5 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM isə 5840,7 manata bərabər olub.

Yeri gəlmişkən, hesabat dövründə ÜDM-in artımını qeyri-neft–qaz sektorunun inkişafı şərtləndirib. Başqa sözlə, respublikada artımın əsas mənbəyini qeyri- neft-qaz sektoru və qeyri-neft-qaz idxalı təşkil edib. Şübhəsiz ki, bu məsələdə xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olmuş siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici ölkələrdən birinə çevirib.

# İnflyasiya proqnozu 2 dəfə azaldılıb

**Bu il Azərbaycanda orta illik inflyasiya 2,7 faiz səviyyəsində proqnozlaşdırılır. Maliyyə Nazirliyinin bu barədə yaydığı məlumatda qeyd edilir ki, ilkin proqnoz 5,3 faiz səviyyəsində nəzərdə tutulsa da, yenidən baxılma ilə həmin göstərici 2,7 faizə qədər azaldılıb.**

Bildirilir ki, 2024-cü ilin yanvar–iyun aylarında inflyasiya tempi azalmaqda davam edib, orta illik inflyasiya 0,7 faiz səviyyəsində qərarlaşıb. Hesabat dövründə orta illik ərzaq qiymətlərində 0,6 faizlik deflyasiya qeydə alınıb, qeyri-ərzaq inflyasiyası 1,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə inflyasiya isə 2,4 faiz olub. İllik inflyasiya cari ilin iyun ayında ötən ilin müvafiq dövrünə nisbətən isə 1,1 faiz təşkil edib.

Xatırladaq ki, inflyasiyanın azalması cari ilin əvvəlindən davamlı prosesə çevrilib. 2024-cü ilin yanvar ayında ölkədə illik inflyasiya 1,7 faiz təşkil edib. Bu göstərici 2023-cü və ondan əvvəlki illərin yanvar aylarında müvafiq olaraq 12,5 faiz və 13,6 faiz olub. Həmin vaxt ölkədə illik inflyasiyanın kəskin enmə səbəbi ilə bağlı İqtisadiyyat Nazirliyinin məlumatında bildirilirdi ki, 2023-cü il ərzində respublikamızda inflyasiyada əvvəlki illə müqayisədə azalma davam edib. Belə ki, ötən ilin dekabr ayında cəmi məhsul və xidmətlər üzrə illik inflyasiya əvvəlki ilin müvafiq göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq 2,1 faiz təşkil edib. 2023-cü ilin dekabr ayında ərzaq məhsulları üzrə illik inflyasiya 0,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 2,7 faiz, ödənişli xidmətlər üzrə isə 3,7 faiz olub. İnflyasiyada sənimə 2024-cü ildə də davam edib və cari ilin yanvar ayında bu göstərici 1,7 faizə enib.



Ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib.

Həmin vaxt Maliyyə Nazirliyinin məlumatında isə bildirilirdi ki, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərir. Qiymətlərin zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında", eləcə də "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyanın azalmasını şərtləndirir.

# 79 layihəyə 1,4 milyon manatdan çox dəstək

**Kiçik və orta biznes (KOB) subyektlərinin təhsil, elm və tədqiqat üzrə layihələrinin maliyyələşdirilməsinə dəstək məqsədilə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən cari ilin yanvar–iyun ayları ərzində 21 layihəyə 374 min 488 manat həcmində qrant ayrılıb.**




Agentlikdən redaksiyamıza daxil olan məlumata görə, indiyədək KOB-ların yuxarıda sadalanan istiqamətləri üzrə layihələrinin maliyyələşdirilməsinə dəstək üçün 5 qrant müsabiqəsi təşkil edilib. Bu müsabiqələrə təqdim edilmiş layihələrdən 79-na 1,4 milyon manatdan çox qrant dəstəyi göstərilib.

Qrant müsabiqələrinin keçirilməsi, layihələrin ekspertizası, maliyyələşdirilməsi, monitorinq və hesabatlılıq məsələləri Nazirlər Kabinetinin 30 sentyabr 2020-ci il tarixli qərarı ilə təsdiqlənən "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası"na uyğun həyata keçirilir. Qaydaya əsasən, müsabiqəyə təqdim olunan layihələr müxtəlif dövlət və özəl qurumları təmsil edən 7 nəfərdən ibarət Ekspert Komissiyası tərəfindən qiymətləndirilir.

# Dövlət Neft Fondunun qızıla olan investisiyasının həcmi çoxalıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) qızıla yatırılan investisiyanın həcmini ötən ilə nisbətən 3,3 faiz artırıb.**

ARDNF-in 2024-cü ilin II rübü üzrə investisiya fəaliyyətinin yekunlarına dair hesabatında bildirilir ki, ABŞ dolları portfelinin 8 milyard 574,6 milyon dollarlıq hissəsini (14,8 faiz) qızıl investisiyaları təşkil edir.

Fondun qızıl ehtiyatı cari il iyunun 30-u tarixinə 114,9 ton təşkil edib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*




# İnci tək saf qalsın çeşmələrimiz!

**Su Tanrının insana bəxş etdiyi əvəzssiz nemətdir. Bəşəriyyəti, canlı aləmi susuz təsəvvür etmək mümkün deyil. Amma çox təəssüf ki, bəşər övladı yaranışından bu ilahi möcüzəyə qədirbilənliklə yanaşmayıb, ondan israfçılıqla istifadəyə meyilli olub. Hətta bu azmış kimi, insanlar suyu çirkləndirməkdən də çəkinməyib, onun təmizliyinin qayğısına qalmayıblar. Bu da son nəticədə su mənbələrinin çirklənməsinə, onun mənfi təzahürü olan kəskin şirin su çatışmazlığına gətirib çıxarıb. Bütün canlı orqanizmlərin, o cümlədən insanların mövcudluğu üçün vacib olan bu əvəzsiz nemət çirkləndikdə isə istifadə üçün yararsız hala düşür, necə deyərlər, inci saflığını itirir.**



Suyun çirklənməsi isə ciddi ekoloji problemdir. Bu zərərli tendensiyanın qarşısının alınması, su mənbələrinin qorunması getdikcə aktuallığını artırır. Artıq uzun illərdir ki, dünya alimləri bu sahədə ciddi araşdırmalar aparır, su mənbələrini çirkləndirən əsas səbəbləri izah edir, problemin həlli ilə bağlı təkliflər verirlər. Mütəxəssislər şirin su mənbələrinin çirklənməsini, əsasən, antropogen amillərlə izah edirlər. Yəni bu gün çirkablar, sənaye tullantıları, bərk maddələr də, kənd təsərrüfatında istifadə olunan müxtəlif gübrə və pestisidlər də çaylara və digər sututarlara məhz insan əli ilə axıdılır. Bütün bunlarla yanaşı, atmosfer havasını müxtəlif zərərli maddələrlə, karbon emissiyaları ilə çirkləndirən bəşər övladı bunun su mənbələrinə göstərdiyi zərərin fərqində deyil. Bu səbədən də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) su mənbələrinin çirkləndirilməsinin qarşısının alınması, iqlim dəyişikliyinin su mənbələrinə təsiri, qlobal su çatışmazlığının azaldılması və yağış suyundan daha səmərəli istifadə məsələlərinin də ətraflı müzakirəsi gözlənilir.

Yeri gəlmişkən, şirin su ehtiyatlarının məhdud olduğu Azərbaycanda da bu problem getdikcə kəskinləşir. Bunun da bir sıra səbəbləri var. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, ölkəmizin su ehtiyatlarının 75 faizə yaxını sərhədlərimizdən kənarda formalaşır. Hazırda ölkə üzrə istehlak olunan içməli suyun xeyli hissəsi Kür çayından götürülərək təmizləyici qurğularda emal olunduqdan sonra istehlakçılara çatdırılır. Azərbaycanın mühüm su arteriyası olan Kür çayı və onun əsas qolu Araz hələ respublikamızın ərazisinə daxil olana qədər qonşu ölkələrdə güclü çirklənməyə məruz qalır. Bundan başqa, son zamanlar Böyük Qafqazın Kür hövzəsinə aid olmayan və birbaşa Xəzər dənizinə tökülən şimal-şərq həssəsi çaylarının, eləcə də Lənkəran-Astara bölgəsinə daxil olan çayların da çirklənməsi müşahidə edilir.

Mütəxəssislərin qənətinə görə, antropogen amillərin təsirinin güclənməsi ilə əlaqədar olaraq Kür, Araz çayları və onların qollarının suyunun kimyəvi tərkibində böyük dəyişikliklər baş verib. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda Kür çayının Salyan şəhərinin ərazisindən keçən hissəsində, həmçinin Araz çayının Saatlı məntəqəsində suyun minerallığı 3 dəfədən çox artıb.

Son illər ölkəmizdə su mənbələrinin çirkləndirilməsinin qarşısının alınması, içməli suyun keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu vacib məsələyə münasibət bildirərkən deyib: “Su həyat mənbəyidir, təmiz su isə sağlam həyat deməkdir”. Azərbaycan dövlətinin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi ölkəmizdə əhalinin təmiz və keyfiyyətli su ilə təminatının yaxşılaşdırılmasına, eləcə də tullantı sularının idarə olunmasına diqqət getdikcə artırılır.

## Ekspert rəyi



**Məhəmməd ABDUYEV,**
**ADPU-nun ümumi coğrafiya kafedrasının müdiri, coğrafiya elmləri doktoru**

Azərbaycan da daxil olmaqla, əksər ölkələrdə su ehtiyatları üçün əsas təhlükə çirklənmədir. Tullantı sularının çaylara və sututarlara axıdılmasının qarşısının alınması istiqamətində müəyyən işlər görülsə də, məsələ öz aktuallığını qoruyub saxlayır. Hazırda təhlükə yalnız çirklənmiş və kifayət qədər təmizlənməmiş çirkab suları ilə bağlı deyil. Şərti təmiz adlanan sular da ən mükəmməl bioloji təmizlənmədən sonra belə, zərərli maddələrin daşıyıcıları olurlar. Çox vaxt çirkab suları qızdırılır ki, bu da su ekosistemləri üçün təhlükə yaradır.

Çirkləndirici məhsullar, xüsusən də təbii su obyektlərinin və anbarlarının yuyulması zamanı istifadə olunan biogen maddələr də yerüstü və yeraltı axımlarla mənbələrə daxil olur. Su hövzələrinin çirklənməsinin bir səbəbi də kənd təsərrüfatında istifadə olunan gübrə və müxtəlif pestisidlərdir. Məlumdur ki, torpağın xüsusiyyətindən asılı olaraq 1 hektar gübrələnmiş sahədən çıxarılan biogen maddələr gübrələrin miqdarı və növündən, onların tətbiqi texnikasından, atmosfer və digər şəraitə görə azotun 14,5-25 faizini, fosforun isə 1-1,5 faizini (xam torpaqlarda 7 faizə qədər) təşkil edir. Eyni zamanda, torpağa verilən üzvi və mineral gübrələrin, təxminən, 10 faizi su hövzələrinə daxil olur.

Məlum olduğu kimi, hazırda Azərbaycanda hər il orta hesabla 350-400 min ton gübrə istehlak olunur. Təbii şəraitdə biotanın tullantı məhsulları olan biogenlər su hövzələrindən çaylara və sututarlara daşınsa da, antropogen əlavələr bu axınları xeyli artırır. Yeri gəlmişkən, apardığımız tədqiqatlar nəticəsində müəyyən olununub ki, Azərbaycanın çay hövzələrinin 2 faizi zəif, 25 faizi mülayim, 73 faizi isə xeyli dərəcədə antropogen yüklənməyə məruz qalıb. Antropogen yüklənmənin hidroloji effekti daha çox təbii və dəyişdirilmiş landşaftları təmsil edən axım əmsallarının fərqinin böyük olduğu isti dövrdə özünü göstərir ki, bu da yay daşqınlarının intensivləşməsinə şərait yaradır. Nəticədə, bu amil su ehtiyatlarını artırsa da, çayların və su anbarlarının çirklənməsinə səbəb olur. Hesab edirəm ki, su ehtiyatlarının keyfiyyətcə tükənməsinin xüsusi təhlükəsi nəzərə alınaraq onun qarşısının alınması və aradan qaldırılması üçün tədbirlər prioritetlər sırasında olmalıdır. İlk növbədə, çirkab sularının təmizlənməsini yaxşılaşdırmaq lazımdır. Bununla yanaşı, təmizlənmiş çirkab sularının çaylara və su anbarlarına daxil olmasının qarşısı alınmalıdır. Bu məqsədə çatmağın əsas yolları isə suya qənaət, susuz texnologiyalar və qapalı su istehlakı dövrələridir ki, bunların reallığı hələ ötən əsrin 80-ci illərində tam sübuta yetirilib.

Sonda bir məqamı da qeyd edim ki, su obyektlərinin çirklənməsinə, eləcə də yerüstü axımın azaldılmasına yönəldilmiş tədbirlərlə (meşə və tarla torpaqlarının növbələşməsi, su saxlayan kənd təsərrüfatı texnologiyaları və s) hövzədə gedən eroziya prosesi zəifləyə bilər. Bu yolla, həm də əkin sahələrinin su təchizatının yaxşılaşdırılmasına nail olmaq mümkündür.



# Qlobal ekoloji mübarizənin “yaşıl” tikinti hədəfləri

**Dünən Bakıda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq çərçivəsində tikinti sahəsində fəaliyyət göstərən yerli və xarici tikinti şirkətlərinin rəhbərlərinin iştirakı ilə Azərbaycanda “yaşıl” tikinti üzrə “dəyirmi masa” keçirilib. Tədbirin məqsədi yerli tikinti şirkətlərini, inşaat materiallarının istehsalı ilə məşğul olan müəssisələri, xarici şirkətləri və ekspertləri, eyni zamanda, dövlət orqanlarının nümayəndələrini bir araya gətirməklə davamlı və sıfır karbonlu tikintiyə keçid üçün müzakirələrin aparılması və əməkdaşlıq platformasının yaradılmasıdır.**

“Dəyirmi masa”da çıxış edən ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev bildirib ki, hazırda CO2 (karbon-dioksid) qazının 21 faizi tikinti sektorunda formalaşır. Qeyd olunub ki, tikinti fəaliyyəti havanın çirklənməsinə gətirib çıxarır ki, bu da öz növbəsində insan sağlamlığı üçün neqativ nəticələr yaradır. “Biz bunu necə azalda bilərik? Hansı yeniliklər qəbul edə bilərik? Bunlar barədə düşünməliyik. Hər hansı bir bəyanat imzalamaqla yox, icra etməklə nəticə əldə etməliyik. Nəzarət sistemindən çıxmalıyıq. Hər bir şirkət özü məsuliyyət daşımalı, addım atmalıdır”, – deyə M. Babayev əlavə edib.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxışında qlobal istiləşmənin yaratdığı iqlim böhranında dayanıqlı tikintinin daha çox önəm daşıdığını bildirib. Azərbaycanın COP29-a sədrlik etməklə qlobal iqlim dəyişikliyi ilə mübarizədə qətiyyətli olduğunu sübut etdiyini vurğulayan komitə sədri rəhbərlik etdiyi qurumun tikinti sənayesində rəqəmsallaşdırma və ətraf mühitin qorunması ilə bağlı bir sıra tədbirlərin həyata keçirdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, qısa müddət ərzində damüstü günəş enerjisi sisteminin quraşdırılması təsdiq edilib, hazırda isə işğaldan azad olunmuş ərazilərdə “yaşıl enerji” zonası yaradılması ilə bağlı tədbirlər həyata keçirilir. A. Quliyev, həmçinin ölkəmizdə damüstü günəş enerjisi sisteminin quraşdırılmasının təsdiq edildiyini iştirakçıların diqqətinə çatdırıb.

Qeyd edək ki, Azərbaycanın dayanıqlı “yaşıl” tikinti rəhbərlərinin “dəyirmi masa” müzakirəsi baş icraçı direktorlar, nazirlər, BƏƏ-nin tikinti şirkətləri, COP29-un prezidenti və BMT-nin COP29 üzrə yüksək səviyyəli çempionu daxil olmaqla ölkəmizin aparıcı sənaye liderlərinin xüsusi yüksək səviyyəli görüşüdür. “Dəyirmi masa” qlobal iqlim hədəflərinə nail olmaq istiqamətində “yaşıl” tikintinin mühüm rolunu vurğulayır və COP29-a gedən yolda əhəmiyyətli mərhələyə işarə etməklə Azərbaycan və onun hüdudlarından kənarda ciddi nəticələri olan məqsədyönlü biznes əməliyyatları və əməkdaşlıq üçün zəmin yaradır. Ekspertlərin fikrincə, bu unikal tədbir çağırışları müzakirə etmək, imkanları araşdırmaq və əlverişli siyasətləri müəyyən etmək məqsədilə platforma təqdim etməklə Azərbaycanın tikinti sektorunda əməkdaşlıq və dayanıqlı inkişafa təkan verəcək.

Tədbirin sonunda COP29 Təşkilat Komitəsinin bir neçə üzvü və Azərbaycanda fəaliyyət göstərən bəzi tikinti şirkətinin rəhbərləri tərəfindən “Azərbaycanın Dayanıqlı Yaşıl Tikinti Bəyənnaməsi” imzalanıb. Bəyannamənin məqsədi tikinti şirkətlərinin emissiyaların azaldılması məsuliyyətini dərk etdiyini göstərməsidir. Bəyannamə bu istiqamətdə atılan addımın ilk mərhələsidir. Daha sonra isə məsuliyyəti dərk etmək mərhələsindən əməli fəaliyyətə keçid olacaq.

# “The National News” COP29-a hazırlıqdan yazıb

**Qalıq yanacaqla zəngin olan Azərbaycanın qarşısında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla evsahibliyi etmək kimi çətin vəzifə durur.**

Gündəlik “The National News” qəzetində 2-ci Şuşa Qlobal Media Forumunun iştirakçısı Con Dennehinin müəllifi olduğu yazı yuxarıdakı sözlərlə başlayır. Məqalə müəllifi bildirir ki, təxminən, üç aydan sonra Bakı iqlim dəyişikliyi problemini həll etmək üçün 200-ə yaxın ölkədən nümayəndələri bir araya gətirəcək.

Müəllifin sözlərinə görə, tədbirin neft hasilatı ilə bağlı zəngin tarixi olan ölkədə təşkili Qərb mətbuatında tənqid olunsa da, ölkə rəhbərliyi COP29-da qarşıya qoyulan məqsədlərə nail olunacağına əmindir. “Bakının xeyrinə qərar verilməsi qalıq yanacaq sənayesi lobbiçilərinin danışıqlara nəzarəti ələ keçirdiyini düşünənlər tərəfindən tənqidə məruz qalıb. Lakin Azərbaycan Prezidenti İlham Əliyev Qərbin geniş, əlaqələndirilmiş media hücumuna cavab verdi”, - məqalədə qeyd olunub.

Məqalədə daha sonra dövlət başçısının sözlərindən sitat gətirilib: “Biz izah etməyə çalışırdıq, bu, bizim günahımız deyil ki, biz neft və qazla zənginik. Bizim fəaliyyətimiz onun əsasında qiymətləndirilməməlidir. Biz iqtisadiyyatımızı necə şaxələndirmişik, işsizliyin öhdəsindən necə gəlmişik, yoxsulluğu necə azaltmışıq... Deyə bilərəm ki, vaxt keçdikcə bizə qarşı hücumların sayı azalır... Ancaq onu bilirik ki, tədbir yaxınlaşdıqca bu ittihamların və hücumların sayı yenə də artacaq”.

Bundan əlavə, müəllif qeyd edib ki, ölkə bərpaolunan enerji mənbələri sahəsində mühüm irəliləyişlər əldə edib, bu da Azərbaycanın “yaşıl keçid”ə hazır olmasından xəbər verir.

“Şəhərdən kənarda nəhəng Qaradağ Günəş Elektrik Stansiyası yerləşir. BƏƏ-nin “Masdar” şirkəti tərəfindən tikilən və ötən il istifadəyə verilən 230 meqavat gücündə stansiya ölkənin ilk belə sənaye miqyaslı layihəsidir. Bu stansiya təxminən 110 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin edəcək və məqsədi ətraf mühitə atılan tullantıları ildə 200 min ton azaltmaqdır”, - məqalədə bildirilib.


The National
Climate
Fossil fuel-rich Azerbaijan prepares to host crucial Cop29 climate talks

Müəllif Azərbaycanın evsahibliyi edəcəyi COP29-da iqlim danışıqlarında maliyyə məsələsinin ön planda olacağını vurğulayıb: “COP29-u uğurla keçirmək üçün Bakının qarşısında məsul vəzifə var – maliyyə. Bu tədbirdə qalıq yanacağından uzaqlaşmaq prosesinin necə maliyyələşdiriləcəyi ön plana çıxacaq. Dünya inkişaf etməkdə olan ölkələr üçün illik 100 milyard dollar həcmində yeni maliyyə öhdəliyi ilə razılaşmalıdır”.

Məqalədə Azərbaycanın onilliklərlə davam edən münaqişəyə son qoyulması məqsədilə aparılan sülh prosesi fonunda Ermənistanı COP29-a dəvət etdiyi qeyd olunub. Jurnalist Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu məsələ ilə bağlı fikirlərinə istinad edib: “Azərbaycan indi Qarabağ münaqişəsinin sonundadır. İndi biz bu səhifəni çevirdik və sülh haqqında düşünürük. Biz, həmçinin sülh və COP29 anlayışını birləşdiririk”.

Qeyd edilib ki, COP29 Bakı Olimpiya Stadionunda keçiriləcək. Hazırda bu arenada COP29-a geniş hazırlıq işləri görülür. COP29-un baş icraçı direktoru, Azərbaycanın energetika nazirinin müavini Elnur Soltanov burada yaradılacaq zonalar barədə məlumat verib. O bildirib ki, Azərbaycan bu tədbirə evsahibliyi etmək üçün geniş logistik imkanlara və yüksək qonaqpərvərliyə malikdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

Müzakirə

# Ortaq əlifba: hərflərin harmoniyası

**Çox zəngin tarixi ənənələrə malik olan türk xalqlarının vahid əlifbasının olması çox önəmlidir. Xalqların siyasi, iqtisadi və mədəni-mənəvi birliyinin yaranması baxımından belə bir əlifbanın yaradılması müstəsna əhəmiyyətə malikdir.**



Uzun illərdir bu barədə tədbirlər keçirilir, müzakirələr aparılır, amma, təəssüf ki, ortada hamı tərəfindən qəbul edilən və həyata vəsiqə alan rəsmi bir sənəd yoxdur. Elə bil ki, bu işin reallaşmaması üçün gözəgörünməz bir qüvvə əngəl törədir.

Yəqin ki əvvəl-axır, gec ya tez, Türk dünyasının bilim adamları ortaq məxrəcə gələcəklər. Təki mövcud əlifbadakı qüsurlu ənənələr burada da öz əksini tapmasın! Nədir onlar?! Birincisi, hərflərin hansı prinsip əsasında düzüldüyü bilinmir. Bu səbəbdən təcrübəli pedaqoqlar birincilərə əlifbanı öyrətdikləri zaman oradakı ardıcıllığı deyil, hərflərin işlənmə tezliyini əsas götürürlər. Əgər əlifbada hərflər işlənmə tezliyinə görə düzülsə, onda belə bir mənzərə alınar:

A İ Ə N R L D M I S T Y B
E K U O Q Ü Z Ş V H C X Ö
Ç F G P Ğ J

Göründüyü kimi, kimyadakı metalların aktivlik sırasına bənzəyən bu ardıcıllıqda A birinci, J axırıncı yerdə dayanır. A-dan sonra B deyil, İ gəlir.

İkincisi, böyük və kiçik hərflər, eləcə də əl yazısı ilə çap yazısı bir-birindən çox fərqlənir. Bu da texniki çətinliklər yaradır. Məsələn, ikili say sistemində hərflər kodlaşdırılarkən artıq zəhmət tələb olunur.

Yaponlar yeri gələndə 4 əlifbadan istifadə edirlər. Qarşıda dayanan bütün tələblərə cavab vermək üçün ya gərək yaponlar kimi 4 əlifba işlədək, ya da elə əlifba yaradaq ki, universal olsun və bütün tələblərə cavab versin.

Belə əlifba və əl yazısında ilk növbədə hərflərin konfiqurasiyası çox sadə və aydın yazılmalıdır. Bunun üçün ən optimal variant hərflərin yalnız bir ünsürdən - düz xətlərdən ibarət olmasıdır. Belə hərflər EHM-lərdə asanlıqla qəbul olunar və işlənə bilər. Poçt-rabitə sistemində olduğu kimi, zərfin üstündə indeksin (rəqəmlərin) düz xətlərlə yazılması onların avtomatik çeşidlənməsinə imkan verir.

Alqoritmdə ədədlərin yazıla bildiyi hər yerdə istənilən cəbri ifadə kimi hərflərin perimetrləri və ya vektorlarının cəmi də yazıla bilər. Yəni alqaritmdə hərfləri onları təsvir edən vektorların cəmi kimi də ifadə etmək olar. Düz xətlərlə yazılan hərflər bu tələbləri ödəyir (yeri gəlmişkən, qədim türk əlifbalarında hərflərin çoxu oxlardan - düz xətlərdən ibarət olub).

Bu cür hərflər hadisə və predmetlərin modelini qurmağa, şəbəkə yaratmağa, yüksək səviyyəli proqramlaşdırma dillərinin yaradılmasına və sadələşdirilməsinə yardımçı ola bilər.

Burada böyük hərflərlə kiçik hərflərin və çap yazısı ilə əl yazısının arasındakı fərq aradan qaldırılır. Yeri gələndə böyük hərflər nisbətən böyük, kiçik hərflər isə daha kiçik yazıla bilər. Hərflərin maili yazılmasına isə ehtiyac yoxdur. Belə təcrübə inkişaf etmiş xarici ölkələrdə də var.

Müəllimlər birincilərə əlifbanı öyrətmək üçün 4-5 ay vaxt sərf edirlər. Düz xətlərlə yazılmış əlifbanı uşaqlara daha asan, daha sürətlə öyrətmək olar. Mövcud əlifbadakı diakritik işarələri, üfiqi qoşa xətləri də heç bir problem yaratmadan xırda, defisə bənzər düz xətlə əvəz etmək mümkündür.

Şagirdlərə mövcud əlifba və əl yazısı - hüsnüxətt qaydaları öyrədilərkən müəllimlər onların aydın, səliqəli və sürətlə yazmasına diqqət yetirirlər. Zaman keçdikcə hər kəsin xətti dəyişir. Bəzən nəinki başqalarının, hətta öz yazdıqlarımızı belə oxumağa çətinlik çəkirik. Əl yazısında hərflərin yeni görünüşü bu problemin də qarşısını ala bilər. Çünki riyaziyyat dəftərində yazılması nəzərdə tutulan bu cür hərflərin konturlarının damalar üzərində cızılması istər-istəməz onların çərçivədən çıxmasının qarşısını alır.

Zaman keçdikcə kompüter əl yazısını sıradan şıxarır. Hazırda insanlar ərizəni belə kompüterdə yazırlar. Hərflərin elektron-kompüter texnologiyasına uyğunlaşdırılması (elə Ə hərfinin yeni konfiqurasiyada verilməsi də), onlarla üzvü şəkildə qovuşması bu prosesin qarşısını ala bilər.

Hərflərin kod adları isə elə seçilməlidir ki, onları tez əzbərləməyə və uzun müddət yadda saxlamağa yardımçı olsun.

Ən önəmlisi isə odur ki, bu işi tezliklə başa çatdırmaq lazımdır. Tarixi fürsəti əldən buraxmaq olmaz.

***Arif ƏRŞADOĞLU,***
***yazıçı-jurnalist***

# Ermənilərin Ağdamda fitnəkar “Tiqranakert” təxribatı

### II hissə

**İşğal zamanı Ağdamın daşını-daş üstə qoymayan ermənilər burada uydurma bir erməni məskəni axtarmağa başlayıblar, “Artsax Tiqranakerti”, yaxud “Qafqaz Tiqranakerti”ni tapmaq adı ilə arxeoloji-qazıntı işlərinə başlayarkən tarixi keçmişimizin izlərini itirməyə çalışmışlar. 2007-ci ildən başlayaraq, Ağdam ərazisində yerləşən bu tarixi arxeoloji məkanı vəhşicəsinə qazmağa başlamış, guya burada bir şəhərin qalıqlarını tapdıqlarını elan etmişlər, adı da “Tiqranakertmiş”...**

İlk dəfə burada qazıntıların aparılması və “Artsax Tiqranakerti”nin tapılması məlumatını uyduran ekspedisiya rəhbəri Hamlet Petrosyanın özü də etiraf edir ki, bunu etmək ona görə lazımdır ki, işğal olunmuş bu ərazilər geri qaytarılmasın. Deyə bilək ki, bura da bizim tarixi vətənimizdir və onu azad etmişik.



Ermənistan bu işin aparılmasına 30 milyon dram pul ayırmışdı. Qondarma “Dağlıq Qarabağ Respublikası”nın turizm şöbəsi ilə Livanın “Menagement Mix” şirkəti arasında müqavilə imzalanıb. Ümid edirdilər ki, şirkət uydurma “Tiqranakert” şəhərində arxeoloji qazıntılar aparmaqla yanaşı, şəhərin bərpası ilə də məşğul olacaq. “Hafta.az”ın əldə etdiyi məlumata görə, bu barədə qondarma respublikanın paytaxtı Xankəndidə keçirilən brifinqdə “Menagement Mix” şirkətinin prezidenti Raffi Semerdicyan məlumat verib. O bildirib: “Bizim şirkət ilin sonuna kimi layihə planlarını “Dağlıq Qarabağ Respublikası”-nın rəhbərliyinə təqdim edəcək. Bu ərazidə iki qrup işləyəcək, onlar qədim Tiqranakert şəhərinin qurulması ilə məşğul olacaqlar. Burada əsas məqsəd yerli turistlərlə yanaşı, xarici turistləri və şirkətləri bu ərazilərə cəlb eləməkdir. Düşünürük, turistlərin böyük axını ilə birlikdə Tiqranakertin inkişafına əlavə investisiyalar da qoyulacaq”.

Həmin “kəşfləri” dünyaya yaymaq üçün onlar Misirdə havadarlar taparaq, buradakı İsgəndəriyyə muzeyində təqdimat etmişdilər. Bu saxtakarlığa beynəlxalq çalar vermək üçün hətta Misir-Ermənistan birgə ekspedisiyası yaradılması qərara alınmışdı. Sonra bunu daha geniş coğrafiyada yaymaq üçün Los-Ancelesdə mətbuat konfransı keçirilmişdi. Bu təxribat başqa ölkələrdə də davam etdirilmişdi.

“Tiqranakertin tapılması" ermənisayağı bir sensasiya olmalı idi, amma dünya buna inanmadı. Tarixdə belə bir məkan olmuşdurmu?

Mifik “Böyük Ermənistan” dövlətinin paytaxtlarından biri kimi “Tiqranakert"-dən bəzən bəhs edilmişdir. Ermənilərə görə indiki Diyarbəkirə yaxın bir yerdə belə bir yaşayış məskəni olmuşdur və onu “Tiqran Metsin torpaqları”nın paytaxtı kimi qələmə verməyə çalışmışlar. Amma o zaman da müstəqil bir erməni dövləti mövcud olmamışdır ki, onun da belə bir paytaxtı olsun.

Ermənilərin bəzi alimləri özləri isə bu yaxınlaradək “Tiqranakert”in Yaxın Şərqdə, Mesopotamiyada yerləşdiyini iddia edirlər. Əgər ermənilərin “Tiqran Metsin torpaqları” Doğu və Güney Doğu Anadolunu əhatə edirdisə, nədən Tiqranakerti Ağdamda axtarırlar? Nədən işğal edilən Sədərək rayonunun Kərki kəndini daha bir “Tiqranakert” kimi qələmə verməyə çalışırlar?

Məlum erməni xəstəliyidir. “Tiqranakert”in qalıqlarının Ağdam ərazisində “tapılması” gülünc bir saxtakarlıqdır. Hətta erməni tarixçilərindən də bəziləri bu iddialarının əsassız olduğunu söyləmişdilər. Tanınmış Azərbaycan tarixçisi, mərhum Kərəm Məmmədov deyirdi ki, tarixi mənbələrdə indiki Ağdamın adı maksimum dərəcədə “haylaşdırılsa” da, Musa Kalankatuklunun “Ağvan tarixi” əsərində o, “Ağuen” şəklində işlənir. Faktiki olaraq indi Azərbaycan türkcəsində “ban” və “dam” eyni məna daşıyır. “Ağ ban” və “Ağ dam” toponimi sadəcə sinonimdən başqa bir şey deyildir. Bu təxribatın müəlliflərindən biri olan erməni tarixçi Minasyan deyir ki, Ağdamın əsl adı “Akn”dır, özü də guya erməni məskənidir. Minasyan “sübut etməyə” çalışır ki, azərbaycanlılar (o bizi “türk-tatar köçəri qəbilələri” adlandırır) guya buraya gəlmədirlər: “Şəhərin (Ağdamın) əsas əhalisini ermənilər “təşkil edirdi”, yalnız XIX əsrin sonlarında və XX əsrin əvvəllərində burada türk-tatar qəbilələri yerləşdilər. Sonra ermənilər buradan çıxarıldılar”. Erməni tarixçisi işğaldan əvvəl utanmadan yazırdı ki, “indi Akna yenidən erməni yurdudur. Ağdam vaxtilə erməni şəhəri olmuşdur. 1993-də ermənilər onu yenidən ermənilərə qaytardılar”.

Ağdamda qazıntılara gəlincə, e.ə. II minilliyin I yarısına aid edilən (orta tunc dövrü) Üzərliktəpə yaşayış yeri öyrənilmişdir. Yaşayış yerinin ətrafına qala hasarı çəkilmişdir. Bundan başqa, Azərbaycan arxeoloqları tərəfindən Ağdamın Şıxbabalı və Papravənd kəndləri ərazisində e.ə. XII-IX əsrlərə aid ətrafına qala divarları çəkilmiş yaşayış məskənləri tədqiq olunmuşdur. Bu abidələr Azərbaycanda, xüsusilə onun Qarabağ bölgəsində ilkin şəhər mədəniyyətinin formalaşmasını sübut edir və Azərbaycan xalqının tarixi keçmişinə məxsusdur.

Bütün bu abidələrin məhz Azərbaycan xalqının tarixi keçmişinə məxsus olması dünya arxeologiyasına çoxdan məlumdur və həmin abidələrin erməni tarixinə heç bir aidiyyəti yoxdur.

Təsadüfi deyil ki, Polşanın tanınmış alimi Voytsex Pastuşka hələ bir müddət əvvəl ermənilərin “Tiqranakert” fitnəkarlığı barədə danışarkən demişdi ki, bu qazıntılar “arxeoloji deyil, siyasi qazıntılardır”.

***Qafar MEHDİYEV***
***XQ***

# Baş prokuror vətəndaşlarla görüşüb



**İyulun 30-da Baş prokuror Kamran Əliyev Nərimanov Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Nərimanov rayonundan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 63 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

# Azərbaycan – Pakistan: strateji əməkdaşlıq əlaqələri yüksək qiymətləndirilib



**İyulun 30-da xarici işlər naziri Ceyhun Bayramov Pakistanın ölkəmizdə yeni təyin olunmuş səfiri Qasım Mohiuddinlə görüşüb.**

Görüşdə səfir etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri təyinat münasibətilə təbrik edib, ona fəaliyyəti müddətində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında mövcud strateji tərəfdaşlıq gündəliyi, Azərbaycan Prezidentinin Pakistana son rəsmi səfəri zamanı əldə olunmuş razılıqların icrası məsələləri və gələcək planlar müzakirə edilib.

Tərəflər iki dost və qardaş ölkə arasında strateji əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib, bir çox istiqamətlərdə əməkdaşlığın daha da dərinləşməsinin zəruriliyini vurğulayıblar.

Görüşdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində iki ölkə arasında yüksək səviyyəli təmaslar üçün əlavə imkanın yarandığı bildirilib.

# Danışıqlar heç bir ilkin şərt irəli sürülmədən davam etdiriləcək

**Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi üzrə xüsusi nümayəndələr – səfir Serdar Kılıç və Ermənistan Milli Assambleyasının vitse-spikeri Ruben Rubinyan arasında beşinci görüş iyulun 30-da iki ölkənin ortaq sərhədindəki Alican-Marqara sərhəd-keçid məntəqəsində baş tutub. Görüşdə əvvəlki müzakirələr zamanı razılaşdırılmış məsələlər təsdiqini tapıb.**




Bu fikirlər Türkiyə Xarici İşlər Nazirliyinin iki ölkə arasında münasibətlərin normallaşması prosesi üzrə xüsusi nümayəndələrin beşinci görüşü ilə bağlı açıqlamasında yer alıb.

Açıqlamada bildirilib ki, xüsusi nümayəndələr, həmçinin Akyaka-Axurik dəmir yolu sərhəd qapısının regional inkişafa uyğun şəkildə istifadəyə veriləcəyi təqdirdə tələb olunacaq texniki ehtiyacları qiymətləndirmək və diplomatik-rəsmi pasport sahibləri üçün qarşılıqlı viza prosedurlarını asanlaşdırmaq barədə razılığa gəliblər. Nəticə etibarilə son məqsədi tam normallaşma olan bu prosesin heç bir ilkin şərt irəli sürülmədən davam etdirilməsinə dair razılıq əldə olunub.

# Mərakeşin milli bayramı qeyd olunub

**Mərakeşin milli bayramı – Taxt-Tac Günü münasibətilə iyulun 30-da Bakıda rəsmi qəbul təşkil edilib.**



Tədbirdə əvvəlcə Azərbaycanın və Mərakeşin Dövlət himnləri səsləndirilib.

Ölkəsinin son illərdə qazandığı uğurlar barədə danışan Mərakeşin Azərbaycandakı səfiri Məhəmməd Adil Embarş qeyd edib: “2030-cu ilədək istixana qazı emissiyalarını 45,5 faiz azaltmağı hədəfləyən Mərakeş yüksək nəticələr göstərən ölkələr sırasında yer alır. Buna görə də Mərakeş Bakıda uğurlu COP29-u səbirsizliklə gözləyir və Azərbaycana uğurlar arzulayır”.

Sonra çıxış edən Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Azərbaycanın Mərakeş ilə münasibətlərin möhkəmlənməsinə xüsusi əhəmiyyət verdiyini, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi arzusunda olduğunu söyləyib.

***XQ***

Cahangir Novruzov – 70

# Sənətkarlar nəslinin üçüncü nümayəndəsi

**Bu gün yubileyi olan Xalq artisti Cahangir Novruzov tanınmış kamança ifaçısı, uzun illər Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində muğam üzrə dərs demiş Mütəllim Novruzovla böyük gülüş ustası, Xalq artisti Nəsibə Zeynalovanın yeganə övladıdır. Ona Nəsibə xanımın atasının – Azərbaycan professional teatrının banilərindən biri, görkəmli aktyor, teatr xadimi və pedaqoq Cahangir Zeynalovun adını qoyublar.**



Yadımıza gəlir ki, illər öncə babasının 150 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyinin planı üzrə "Cahangirdən Cahangirə" adlı bədii layihə təqdim olunub və yubilyarın nəvəsi – yaşadığı Adanadan Bakıya gəlmiş Cahangir Novruzovun rejissorluğu ilə, teatr klassikası kimi, Anton Çexovun "Qu quşunun nəğməsi" əsəri əsasında tamaşa hazırlanmışdı. Səhnə əsərinin baş rolunda Cahangir Novruzov özü



çıxış edərək, nəsillərin estafetinin davam etdiyini gözəl sərgilədi.

Cahangir Novruzov İncəsənət İnstitutunun rejissorluq fakültəsində SSRİ Xalq artisti Mehdi Məmmədovdan dərs alsa da, anası Nəsibə xanım, nədənsə, onun bu sənətə yiyələnməyinə razı deyilmiş. Həmin dövrlə bağlı söhbətində deyir: "Anam, deyəsən, məni bu sənətdə görmək istəmirdi. Süleyman Rüstəmin 65 illik yubileyi idi, 1-ci kursda olmağıma baxmayaraq, mənə onun "Çimnaz xanım yuxudadır" tamaşasında Qafar rolunu vermişdilər. Anam oyunumu qapı arasından izləmək istədi. Amma imkan vermədilər. Gətirib səhnədə əyləşdirdilər. Mehdi müəllim tamaşadan sonra anama dedi ki, Cahangirin necə rejissor olacağını hələ bilmirəm, amma yaxşı aktyor olacağı bəllidir. Bu sözlər mənə ilk cəsarəti verdi. Bir dəfə də 3-cü kursda "Almaz" əsərində Hacı Əhmədi oynayırdım. Ədil İsgəndərov, Mehdi Məmmədov və Rza Təhmasib imtahan götürürdülər. Tamaşadan sonra Rza Təhmasib – Hacı Əhməd rolunun ən mahir ifaçısı, özünəxas bir hərəkətlə dodaqlarının kənarını sığallayaraq mənə dedi: "Xoroşo, doğrudur, düz oynamısan". Bu sözlər də ikinci cəsarət dalğasını yaratdı və məni dəyişdirdi. Allah onlara rəhmət eləsin".

Beləcə, öz istedadı ilə anasının könlünü ala bilən Cahangir 1976-cı ildə ali təhsilini bitirib. Diplom işi olaraq Musiqili Komediya Teatrının səhnəsində Georgi Xuqayevin "Sevgilimin anası" operettasını hazırlayaraq müdafiə edib. Elə həmin il oraya təyinat alaraq çalışmağa başlayıb. Üç il sonra Şəki teatrına quruluşçu rejissor göndərilib.

Arada Cahangir Novruzov Moskva və Sankt-Peterburqda təkmilləşmə kursları keçib. Anatoli Efros və Georgi Tafstanoqovun tələbəsi olub və yenidən Şəkiyə qayıdıb. Orada çalışdığı illər ərzində teatr əməlli-başlı dirçəlib (Yeri gəlmişkən, 70-ci illərdən sonra onun, daha öncə də Hüseynağa Atakişiyevin rejissorluğu dövründə Azərbaycandan kənara çıxan teatr olmasa da, Şəki teatrı Kuba, Çexoslovakiya kimi xarici ölkələrə, Moskva, İrəvan, Tiflis, Səmərqənd, Daşkənd, Kazan kimi şəhərlərə qastrol səfərlərinə və festivallara gedib). Cahangir müəllim özü Praqa və Parisdə keçirilən teatrlar festivallarında münsiflər heyətinin üzvü kimi iştirak edib. Azərbaycanda keçirilən teatr festivalında hazırladığı "Müsyö Jordan və Dərviş Məstəli Şah" əsəri ilə 1-ci mükafatı qazanıb. Bir müddət Musiqili Komediya Teatrında və Gənc Tamaşaçılar Teatrının rus bölməsində baş rejissor olub. 1991-ci ildə Azərbaycan Teatr xadimləri İttifaqının təşkil etdiyi I Mono tamaşalar festivalında Şekspirin "Hamlet" əsərinin motivləri əsasında hazırlanmış "Olum, ya ölüm" tamaşası ilə 1-cilik qazanıb.



Cahangir Novruzov 1995-ci ildə Türkiyə Cumhuriyyətinə universitetdə dərs demək üçün dəvət olunub. Hazırda Adana şəhərində Çuxurova Universitetinin Dövlət Konservatoriyasının teatr bölməsində professordur. Oranın məzunları Cahangir müəllimin türk dilinə çevirərək quruluş verdiyi "Dans Plus" (Oljas Janaydarmov) əsərini layiqincə səhnələşdiriblər. Türkiyədə Qriqori Qorinin "Herostratı unudun" tamaşası da uğurla keçib. Bu nailiyyətlər ona TÜRKSOY-un "Haldun Taner", eləcə də "Qazaxıstanın Fəxri Mədəniyyət Xadimi" medalları ilə təltif olunub. Daha sonra Azərbaycanın xalq artisti fəxri adına və "Diaspor fəaliyyətində xidmətə görə" medalına layiq görülüb.

Onun zəngin filmoqrafiyası var. Düz 55 il əvvəl – 15 yaşında ikən çəkildiyi "Bizim Cəbiş müəllim"dən sonra tədricən tanınmağa başlayan aktyor 20 filmdə və teletamaşada maraqlı obrazlar yaradıb. Maraqlıdır ki, oynadığı rollardan biri rejissorlar Ramiz Həsənoğlu ilə Tariyel Vəliyevin ərsəyə gətirdikləri "Yaşıl eynəkli adam" teletamaşasında adaşı Cahangir olub və uğurlu alınıb. Ramiz Əzizbəylinin Xalq şairi Vaqif Səmədoğlunun ssenarisi əsasında hazırladığı "Bəxt üzüyü" tammetrajli filmindəki milis rəisi, Rasim Ocaqovun dramaturq Rüstəm İbrahimbəyovun dram janrında çəkdiyi "Həm ticarət, həm ziyarət" filmindəki Sabir və sair obrazları ekranda nisbətən az görünüb, saz təsir bağışlayan rollar olub.

Müsahibələrinin birində Cahangir Novruzov deyib: "Səlis məntiqlə, müxtəlif bucaq altında fərqli problemlərə baxa bilməyi bacaran xalqın zəkası, təfəkkürü və düşüncə tərzi daha geniş, daha dərin, daha uzaqgörən olur. Sənətin, ədəbiyyatın, təhsilin əsas məqsədi və amalı da budur. Ziyalı ata-babalarımız bizləri bu günlərə qədər gətiriblər. Bizlər də bu mirası gənclərimizə çatdırıb aşılamalıyıq. Çünki gələcək gəncliyindir".

Bu yubiley yazısını hazırlayanda özünə əlim çatmasa da, onun yaxın dostu – bir vaxtlar eyni kollektivdə çalışdığım görkəmli teatr, kino və televiziya rejissoru, "Azərbaycantelefilm" Yaradıcılıq Birliyinin direktoru, Xalq artisti Ramiz Həsənoğluna zəng edib ürək sözlərini dinləmək istədim. Sualıma böyük məmnuniyyətlə cavab verərək dedi:

– Cahangirlə birgə işləmək hər zaman böyük zövq olub. Çox işıqlı şəxsiyyətdir. Qoy, onun istedadı həmişə parlasın, heç zaman solmasın! Çox istərdim ki, Vətənə qayıtsın, tamaşaçılarını intizarda qoymasın! Dostuma can sağlığı və daha böyük sənət uğurları arzulayıram.

***Əli NƏCƏFXANLI***
***XQ***

Yeni filmlər

# Qaranlıq iztirabların işıqlı sonu

**Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə qalib ordumuzun rəşadəti sayəsində Azərbaycanın 30 illik Qarabağ nisgilinə son qoyulub. İllərlə yaşadığımız işğal dərdinə məlhəm çəkmək üçün, bəlkə də, bizə bir onillər də lazım olacaq. Müharibənin vurduğu yaralar elə də asanlıqla sağalmır. Bu mövzuda əsərlərin yazılmasına, filmlərin çəkilməsinə ehtiyac böyükdür.**

Sevindirici haldır ki, artıq bu mövzuda ekran əsərlərinin çəkilişi reallaşdırılır. İndi haqqında söz açacağımız ekran əsəri müharibədən deyil, onun insan həyatında buraxdığı dərin izlərdən və nakam talelərin faktiki iztirablarından bəhs edir.

30 il əvvəl Qarabağda itirilmiş nakam talelərin axtarışına çıxan qəhrəmanların hekayəsini sərgiləyən "İşığa doğru" filmində hadisələr işğaldan azad edilmiş Füzuli rayonunda baş verir. Ekran əsərinin çəklilişləri bu yaxınlarda başa çatıb. Elşad Ərşadoğlunun ssenari müəllifi və rejissoru olduğu sənədli film müşahidə və subyektiv kamera üsullarından istifadə edilməklə, ərsəyə gətirilib və təhkiyəsi 2 paralel süjet xətti üzərində qurulub.



"XQ"-yə açıqlamasında müəllif ekran əsərinin təsadüfən "İşığa doğru" adlandırılmadığını söylədi.

– Sözügedən mövzuda bədii film layihəmiz olduğu üçün bu sənədli ekran işini belə adlandırmışıq. Bir növ bədii filmin hazırlıq prosesi gedir. Filmin ilkin montajı yekunlaşmaq üzrədir. Hazırda səs və rəng korreksiyası işləri görülür. Payız aylarında ölkəmizdə filmin ilk təqdimatını edəcəyik. Əsas məqsəd 30 illik ağrı-acımızı həm də dünya tamaşaçısına çatdırmaqdır. Bunun üçün xarici festivallarda da filmin təqdimatını düşünürük. Onu da nəzərinizə çatdırım ki, bu ekran əsəri "OB FILM" və "KİNOBİZ" şirkətləri tərəfindən birgə istehsal olunub.

Yeni sənədli filmin təsvir rejissoru Vasif Vəlizadə, səs rejissoru Hafiz İbrahimli, montaj rejissoru Murad Şükürlü, prodüserləri Ramil Ələkbərov və Orxan Behbiddir.

***Ceyhun ALIŞLI***

# ABŞ-də Azərbaycan guşəsi



**Azərbaycan ABŞ-nin Meyn ştatının Portland şəhərində keçirilən Millətlər Festivalında ("Festival of Nations") təmsil olunub.**

Bu, 22 ildən bəri hər il təşkil olunan ənənəvi festivaldır. Bayramda dünyanın 30-dan çox ölkəsindən, eləcə də kiçik ada dövlətlərindən, müxtəlif etnik xalqlardan olan nümayəndələr iştirak edirlər.

Bu dəfə ölkəmizi festivalda Tərlan Əhmədovun rəhbərlik etdiyi Meyn Azərbaycan Cəmiyyətinin nümayəndələri təmsil ediblər. Azərbaycan guşəsində qonaqlara ölkəmizin qədim tarixi və zəngin mədəniyyəti barədə ətraflı məlumat verilib. Bayraqlarımız və milli atributlarımızla bəzədilən Azərbaycan güşəsində qonaqlara icma üzvləri tərəfindən mətbəximizin ləziz təamları (plov, kabab, şəkərbura, paxlava) təqdim olunub. Milli geyimlərdə olan azərbaycanlı uşaqların nümayiş etdiriyi rəqsləri qonaqlar həvəslə alqışlayıblar. Festivalda Azərbaycan musiqisi də ifa olunub.

Gün ərzində ən çox ziyarətçini qəbul edən Azərbaycan güşəsinə maraq yüksək olub. Qonaqlar guşədə yüksək əhval-ruhiyyə ilə vaxt keçirib, şəkil çəkdiriblər.

***XQ***

# Türkiyəli qonaqlar Lənkəranda

**Türkiyə Cümhuriyyətinin Afyon Kocatəpə Universitetinin rektoru, professor Mehmet Karakaşın rəhbərlik etdiyi nümayəndə heyəti Lənkəran Dövlət Universitetində (LDU) qonaq olub.**

LDU-nun rektoru, professor Natiq İbrahimov görüş zamanı türkiyəli həmkarlarına rəhbərlik etdiyi ali təhsil ocağında son illərin yenilikləri, genişlənən beynəlxalq əlaqələr barədə ətraflı məlumat verib. Tərəflər müasir dünyada ali təhsilin məqsəd və vəzifələri, problemləri, perspektivləri, qarşıda duran vəzifələr barədə geniş fikir mübadiləsi ediblər.

Lənkəran Dövlət Universiteti ilə Afyon Kocatəpə Universiteti arasında İkili əməkdaşlıq və "Erasmus+" müqaviləsi imzalanıb. Müqavilələrdə qarşılıqlı əlaqələrin gücləndirilməsi, birgə elmi konfransların təşkili, tələbə-müəllim mübadiləsi, ikili diplom layihəsinin həyata keçirilməsi üçün müvafiq işlərin görülməsi, "Erasmus+" proqramı çərçivəsində tələbə-müəllim heyətinin hərəkətliliyinin artırılması və s. məsələlər əksini tapıb.



Türkiyəli qonaqlar universitetin tədris korpusları, laboratoriyaları, Turizm tədris bazası, fənn kabinələri, tələbə yataqxanalarına baş çəkiblər. LDU ilə tanışlıq türkiyəli qonaqlarda xoş təəssürat yaradıb.

Xatırladaq ki, LDU-nun Beynəlxalq şöbəsi Dil Mərkəzinin rəhbəri Ülviyyə Mirzəyeva ötən ay Afyon Kocatəpə Universitetində keçirilən 10-cu Beynəlxalq Həftə Təlimi üçün Kadrlar Mübadiləsində iştirak edib və təmsilçisi olduğu ali təhsil ocağı haqqında təqdimatla çıxış edib. Həmçinin, layihə çərçivəsində bağlanmış müqavilə əsasında LDU-nun baytarlıq təbabəti ixtisasının 4-cü kurs tələbələrinin bir qrupu yaz semesterində Afyon Kocatəpə Universitetində təhsillərini davam etdiriblər.

***Ə.ƏLİYEV***
***XQ***

# Həkəri sahillərində musiqili anlar



**Laçın şəhərindəki Həkəri bulvarında, açıq havada bəstəkar-müğənni Məhəbbət Kazımovun həyat və yaradıcılığına həsr olunan ədəbi-bədii gecə təşkil olunub.**

Ədəbi-bədii gecədə müğənninin ailəsi, sənət dostları, söz adamları və Beynəlxalq Muğam Mərkəzinin solistləri iştirak ediblər.

Tədbirin əvvəlində mərhum sənətkarın ömür və sənət yolu haqqında məlumat verilib. Tanınmış şair Ramiz Qusarçaylı ona həsr etdiyi şeirlərini söyləyib. Qiraət ustası, Əməkdar artist Ağalar İdrisoğlu, şair Əli Mahmud, xanəndələr Səbinə Ərəbli, Ehtiram Hüseynov, mərhumun bacısı oğlu Hikmət Məhəbbət, "Laçın" musiqi ansamblının rəhbəri Natiq Dağlaroğlu və başqaları maraqlı çıxışlar ediblər. Müğənni haqqında xatirələr söylənilib, ifa etdiyi mahnılar səsləndirilib. Azərbaycan Dövlət Televiziyasının arxivlərində qorunan nadir videokadrlar nümayiş olunub. Həmçinin səhnənin yanında Məhəbbət Kazımovun şəxsi əşyalarının sərgiləndiyi xüsusi guşə yaradılıb.

***XQ***

Sağlamlıq

# Nə yeyək, nə içək ki, xəstələnməyək?

*(əvvəli 1-ci səhifədə)*

– Qidalanma zamanı qida rasionunun seçilməsində insanın yaşının nəzərə alınması vacib amildir. Xüsusən qeyri-düzgün qidalanma insanın vaxtından əvvəl qocalmasına təsir göstərir. Ona görə, ahıl yaşlıların və qocaların qida rasionunun düzgün seçilməsinə ciddi əməl olunmalıdır. Yaşlı insanlar həzm prosesinin çətinləşməsini nəzərə almalı, həmişə eyni vaxtda yeməyə üstünlük verməli, qida qəbulu vaxtı onun həcmini və kaloriliyini (yağlar və karbohidratlar, xüsusilə şirniyyat və digər qənnadı məmulatlarını, nişastanı) azaltmaqla, qidalanmanı tənzimləməlidir. Ahıl yaşlı insanların qida rasionunda bioloji fəal maddələrin miqdarını (vitaminlər, mikroelementlər, fosfatidlər, aminturşular və s.) artırmaq, qidanı təbii antisklerotik maddələrlə zənginləşdirmək tövsiyə olunur. Bu çəxslər qida qəbulları arasında uzun fasiləyə yol verməməlidirlər. Onlar qidalanarkən düyü, makaron məmulatları, paxlalılar, qaymaq, xama, duzlu, yağlı pendirlər, yumurta sarısı, turşəng, ispanaq, şəkər, qənnadı məmulatları, yağlı dondurmalar, şokalad, kremli məmulatlar kimi qidalardan maksimum az istifadə etməlidirlər. Əksinə, yaşlı insanların sağlamlığının qorunması üçün çörək və un məmulatlarından (buğda və çovdar çörəyi, həmçinin kəpək həlimi, soya unu, dəniz kələmi qatılmış çörəklər və peçenyelər), yağlılığı az olan süd məhsullarının bütün növlərindən, suda, sobada bişirilmiş, qiymə halında olan ət, quş əti, balıqların yağsız növlərindən, həftədə 2–4 ədəd, ılıq bişirilmiş yumurtadan daha çox istifadə etməlidirlər.

**– Yaşlı insanlar istədikləri içkiləri qəbul etməkdə sərbəstdirlərmi? Yoxsa hər hansı maye qəbuluna məhdudiyyət var?**

– Qidalar arasında orqanizmin sağlamlığında ən əhəmiyyətli içki vasitəsi sudur. Su yaşamaq üçün çox önəmlidir. Su aldığımız hava qədər vacibdir. Onun tərkibi minerallarla çox zəngindir. Orqanizmdə gedən reaksiyalarda su həlledici rol oynayır. Su bədən temperaturunu tənzimləyir, həzmə, zərərli maddələrin orqanizmdən xaric olunmasına kömək edir. Gündə ən azı 2–3 litr maye qəbul etmək lazımdır. Səhər yataqdan qalxan zaman 1 stəkan su içməkdə fayda var. Hər gün 2–3 litr çiy su içməyə vərdiş etmək üçün, ilk ayda hər yarım saatdan bir 30 qram çiy su içmək uğurlu müalicə üsulu sayılır. Orqanizmdə qızdırma, ağrı, zehni və fiziki halsızlıq olanda, yorğunluq və əsəb zamanı qidadan imtina etmək, yalnız aclıq hiss edəndə yemək, həm də yeməkdən 10–15 dəqiqə əvvəl 1 stəkan çiy suyu ılıq şəkildə qurtum-qurtum içməyi həyat normasına çevirmək lazımdır. Adi vaxtlarda yeməkdən yarım saat əvvəl su içilməlidir. Yemək zamanı və yeməkdən dərhal sonra içəndə isə su 10–15 dəqiqə sonra mədəni tərk edərək özü ilə bərabər mədə şirəsini də yuyub aparır və həzmi pozur. Suyu meyvələrdən 30 dəqiqə, nişastalı qidalardan 2 saat, zülallı qidalardan 4 saat sonra içmək daha faydalıdır.

Qidada xörək duzunun miqdarını azaltmaq, ürək-damar xəstəliyi zamanı ondan tam imtina etmək lazımdır. Xörək duzunda yalnız iki mikroelement – xlor və natrium var. Amma dəniz duzunda olan 64 mikroelementin hər biri orqanizm üçün faydalıdır. Soğan, sarımsaq, qıtıqotu və turp xörək duzunu əvəz edə bilər.

**– Qida rasionu necə tərtib edilməlidir ki, həzm prosesi normal olsun?**

– Bu, çox vacib məsələdir. Yalnız qida rasionu düzgün tərtib edildikdə həzm prosesi yaxşı gedir. Ona görə də nəyi nə ilə birlikdə yeməyin faydalı olduğunu bilmək çox vacibdir. Amerikalı naturopat, yazıçı, alternativ tibbi, aclıqla müalicəni, vegetarianlığı təbliğ edən professor Herbert Şelton qida vasitələrinin bir-birilə uyuşmazlığının baş verməsinin qarşısını almaq üçün bəzi məhsulların qəbul edilmə uyğunsuzluğunu müəyyən etmişdir.





Onun fikrincə, zülalla zəngin qidaları karbohidrat tərkibli qida ilə, yəni qoz, ət, yumurta və digər zülali ərzaqları çörək, kartof, pirojna və şirin meyvələrlə eyni vaxtda yemək məsləhət deyil. Bir dəfə yumurta, balıq, süd və pendir yedikdə, başqa vaxt çörək, yaxud sıyıq və əriştə yeyilə bilər.

Karbohidratlı qidanı turş qida ilə, yəni çörək, kartof, noxud, paxlalı bitkilər, banan və xurmanı pomidor, limon, portağal, kivi, naringi, feyxoa, ananas və digər turş meyvələrlə eyni vaxtda yemək düzgün deyil.

Yağlar zülalla, yəni qaymaq, kərə yağı, xama, bitki yağı, ətlə, yumurta, pendir, qoz-fındıq və digər zülali qidalarla eyni vaxtda yeyilməməlidir. Çünki onlarla bir vaxtda yeyilən yağlar mədənin fəaliyyətini məhdudlaşdırır və mədə şirəsi ifrazına mane olur.

Nişastalı qidalar şəkərlə, yəni cem, meyvə, kərə yağı şəkər, şirə, sıyıq və kartofla yola getməz. Şəkəri dənli bitkilərlə eyni vaxtda qəbul edəndə bağırsaqlarda çürümə baş verir. Nişasta ilə zəngin olan qidaları ayrı-ayrı yemək vacibdir, çünki iki nişastalı qida növünü eyni vaxtda yeyəndə, məsələn, kartof, yaxud sıyıqla çörək yeyiləndə biri digərinin həzmini pozur.

Südü qatıq, süzmə, ayran, şor və pendirə çevirdikdən sonra ayrıca qəbul etmək nisbətən az fəsad verir, çünki süddəki yağ müəyyən müddət mədə şirəsinin ifrazına mane olur, süd mədədə deyil, onikibarmaq bağırsaqda həzm olunur. Mədə südə qarşı heç bir reaksiya vermir və şirə buraxmır. Onunla eyni vaxtda qəbul olunan qidalar da həzm olunmur.

**– İllər öncə belə tövsiyələr də yox idi, xəstəlik də bu həddə deyildi. Kim necə istəyirdi, elə qidalanırdı. Bunun səbəbi barədə nə deyə bilərsiniz?**

– İllər öncə ekologiyamız bu qədər çirklənməmişdi, iqlim dəyişikliyi yox idi. Yay yay idi, qış da qış. Yediklərimiz təbii, keyfiyyətli idi. İndi fəsillər də, ona uyğun təbiət də dəyişib. Ətrafa atılan çirkli, zəhərli qazların, tullantıların artması əkinə - biçinə də, heyvandarlığa da, ümumən iqtisadiyyata, o cümlədən kənd təsərrüfatı məhsullarının keyfiyyətinə də təsir edib. Tam sağlam, keyfiyyətli qida tapmaq müşkülə çevrilib. Odur ki, hər kəsin sağlam bəslənməsi üçün bütün bu cəhətlərə mütləq diqqət edilməlidir. Hər ailədə qidalanma zamanı yeknəsəngliyə, uyuşmazlığa və təkrara yol verməmək üçün həftə ərzində hansı ərzaq məhsullarından, tərəvəzlərdən və meyvələrdən istifadə ediləcəyinin əvvəlcədən planlaşdırılması məqsədə uyğundur.

Nə yediyimizə, nə içdiyimizə diqqət etməliyik. Yoxsa xəstəliklər astanada növbədədir.

*Söhbəti qələmə aldı:*
***Z.HÜSEYNOVA***
***XQ***

# "Qarabağ"ın böyük hesablı qələbəsi

**"Qarabağ" UEFA Çempionlar Liqasında növbəti oyununu keçirib.**



Qurban Qurbanovun baş məşqçisi olduğu kollektiv II təsnifat mərhələsinin cavab görüşündə Cəbəllütariqin "Linkoln" klubunu qəbul edib. Tofiq Bəhramov adına Respublika stadionundakı qarşılaşmada Azərbaycan çempionu rəqibə 5:0 hesabı ilə qalib gəlib. "Köhlən atlar"ın qollarını Olavio Juninyo (3 qol), Yassin Benzia və Leandro Andrade vurublar. Səfərdə rəqibini iki cavabsız topla üstələyən komandamız III təsnifat mərhələsinə yüksəlib.

"Qarabağ" bu mərhələdə "Ludoqorets" (Bolqarıstan) – "Dinamo" (Minsk, Belarus) cütünün qalibi ilə görüşəcək.

***XQ***

# Pakistanda yağış və daşqınlar 14 adamın həyatına son qoyub

**Pakistanın Xayber-Paxtunxva əyalətinin Kohat bölgəsində gecə saatlarında yağan güclü musson yağışları və daşqınlar 7 uşaq, 1 kişi və 3 qadının həyatına son qotub.**



Pakistan mətbuatının yaydığı məlumata görə əyalətin Hangu və Bajur bölgələrində isə üç kişi sel və daşqınların qurbanı olub.

Yağışların gələn həftə ölkənin müxtəlif bölgələrində sellərə səbəb ola biləcəyi haqqında məlumat verilir.

Hər il iyun-sentyabr aylarında musson yağışları Pakistanda böyük fəlakətlər törədir.

Xatırladırıq ki, Pakistanda 2022-ci ildəki güclü sel və daşqınlar nəticəsində 1739 adam həyatını itirmişdi. Hökümət selin ölkəyə 30 milyard dollardan cox zərər vurduğunu açıqlamışdı.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**İslamabad**


# BİLDİRİŞ

## Əmanətlərin Sığortalanması Fonduna üzv bankların reyestrində dəyişiklik edilmişdir

Əmanətlərin Sığortalanması Fonduna 29 avqust 2008-ci il tarixdə üzv olan "Naxçıvanbank"ASC "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 22.3.1-ci maddəsinə uyğun olaraq Əmanətlərin Sığortalanması Fonduna üzv bankların reyestrindən çıxarılmış və banka verilmiş şəhadətnamə ləğv edilmişdir.

AZƏRBAYCAN ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU

Bildiyiniz kimi, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 24 iyul 2024-cü il tarixli qərarı ilə "Naxçıvanbank" ASC-nin müraciəti əsasında "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 16.1.1-ci və 29-cu maddələrinə, eləcə də "Bankların yenidən təşkili haqqında Qaydalar"a (Qaydalar) müvafiq olaraq "Naxçıvanbank" ASC-yə bank fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş bank lisenziyası həmin tarixdən etibarən ləğv edilmişdir.

Əmanətlərin Sığortalanması Fondu "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsinə əsasən iştirakçı bankların 30 iyul 2024-cü il tarixinə olan reyestrini ictimaiyyətin diqqətinə çatdırır:

| | Reyestrə daxil olma tarixi | Bankın adı |
|---|---|---|
| 1 | 30.07.07 | «XALQ»Bankı ASC |
| 2 | 30.07.07 | «Azərbaycan Beynəlxalq Bankı»ASC |
| 3 | 30.07.07 | "ACCESSBANK" QSC |
| 4 | 30.07.07 | Melli İran Bankı Bakı filialı |
| 5 | 30.07.07 | «Azər-Türk Bank» ASC |
| 6 | 30.07.07 | «Bank of Baku» ASC |
| 7 | 30.07.07 | «Bank Respublika» ASC |
| 8 | 30.07.07 | «Kapital Bank» ASC |
| 9 | 30.07.07 | «YELO BANK» ASC |
| 10 | 30.07.07 | «Rabitəbank» ASC |
| 11 | 30.07.07 | «TURANBANK» ASC |
| 12 | 30.07.07 | «UNİBANK» KB ASC |
| 13 | 30.07.07 | Yapı Kredi Bank Azərbaycan QSC |
| 14 | 07.08.07 | «Expressbank»ASC |
| 15 | 10.09.07 | «Azərbaycan Sənaye Bankı» ASC |
| 16 | 04.12.07 | «Bank Avrasiya» ASC |
| 17 | 04.12.07 | «Paşa Bank» ASC |
| 18 | 16.01.09 | «AFB BANK»ASC |
| 19 | 26.02.09 | BANK VTB (AZƏRBAYCAN) ASC |
| 20 | 28.04.09 | PREMIUM BANK ASC |
| 21 | 15.04.10 | Bank «BTB» ASC |
| 22 | 15.05.15 | «Ziraat Bank Azərbaycan» ASC |


Kiçik bir yaşantı

# Ürəyinizi hər ürəksizə verməyin!

**Hər dəfə qaçanda, sevinəndə, kövrələndə, qorxanda və ya nədənsə həyəcanlananda sinəmizdə bir döyüntü hiss edirik. Bu, ürəyimizin səsidir – bizim üçün gecə-gündüz işləyən, narahatlıq keçirən ürəyimizin səsi...**



Biz yatanda o yatmır, dincələndə dincəlmir. Biz işlərimizi bəzən ləngitsək, də o ləngitmir. Saat kimi dayanmadan işləyir. Hətta saat geri qalsa da o geri qalmır.

Bəs biz ürəyimizi nə qədər tanıyırıq? Elə isə gəlin ürəyimizi yaxından tanımağa çalışaq.

Hesablamalara görə, orta yaşlı bir adamın ürəyi dəqiqədə təxminən 72 dəfə, gün ərzində 100 min dəfə, həyatı ərzində isə təxminən 2,5 milyard dəfə döyünür.

İnsan ürəyindən ömrü ərzində keçən qanın miqdarı, bütün gücü ilə işləyən mətbəx kranından 45 il ərzində axan suya bərabərdir.

Gülmək insan ürəyini sağlamlaşdırır. Gülək ki, (hırıldamaq yox) ömrümüz uzansın. Güldürək ki, ömürlərə ömür calayaq. Çünki gülüş sayəsində ürək divarları daha yumşaq olur, qan dövranı isə təxminən 20 faiz sürətlənir. Deyilənə görə, il ərzində ən çox infarkt halları dekabrın son həftəsində və bazar ertəsi günləri baş verir.

İnsanın ürəyi elektrik impulslar yaradır.

Ürək yaman şeydir...

Ürək həm də arzular, istəklər, xatirələr, səmimiyyət və nifrət yuvasıdı. O istəməsə, biz sevgi hissindən, mərhəmətdən məhrum olarıq. Çünki ürəksiz yaşamaq mümkünsüz olduğu kimi, hissiz, duyğusuz, sevgisiz də yaşamaq yaşamaq deyil. Ürək var, ürək də var. Ürək var, ancaq bir canın yaşaması üçün sakit-sakit döyünür. Ürək də var, bu narahat dünyanın ağrılarını çəkir. Ürək gərək daim sevinsin, insanı xeyirxah əməllərə səsləsin.

Ruhu şad olsun, görün, Bəxtiyar müəllim necə deyir:

**Neyləyirəm o ürəyi-**
**Yox arzusu bir diləyi!?**
**Bacarmırsa o sevməyi**
**Demək o heç ürək deyil.**
**O heç mənə gərək deyil.**

Onu da deyək ki, çağımızda mal-mülk oğruları kimi ürək oğruları – vəfasızlar da çoxalıb. Buna görə də ürəyinizi hər ürəksizə etibar etməyin, onu qoruyun! Bəlkə bu da insan oğlunun qədəridir ki, ömür payını ürəkdən yaşayanların çoxu elə ürəkdən dünyasını dəyişir...

***Səməd MƏLİKZADƏ***


## "SOCAR Green" MMC kompüter və digər İT avadanlıqlarının satın alınması məqsədilə MÜSABİQƏ ELAN EDİR

Müsabiqənin başlanma tarixi 31 iyul 2024-cü il. Təchizatçılar tərəfindən imzalanmış və möhürlə təsdiq edilmiş təkliflər möhürlənərək qapalı zərfdə təqdim edilməsi üçün son tarix 13 avqust 2024-cü il saat 18.00-dır. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Təkliflərin çatdırılma ünvanı– Bakı şəhəri, Heydər Əliyev prospekti 121, "SOCAR Tower".

Müsabiqədə iştirak haqqı nəzərdə tutulmayıb. Zərflərin açılışı vaxtı və yeri barədə məlumat müsabiqədə iştirak edəcək təchizatçılara veriləcəkdir. Təchizatçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən təchizatçılar əlaqələndirici şəxs Leyla İsmayılovaya (əlaqə telefonu– (012) 521 00 00 (daxili 27800), (055) 452 00 99) "leyla.ismayilova@socar-green.az" mail ünvanı vasitəsilə müraciət edərək müsabiqə barədə ətraflı məlumat və müsabiqədə iştirak etmək üçün vacib olan əlavə sənədləri əldə edə bilərlər.

***Müsabiqə komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 160 (30564) 31 iyul 2024-cü il, çərşənbə

# Qızıl medal idmançılarımız üçün motivasiyadır

**Azərbaycan idmanı tarixinin ən əlamətdar günlərini yaşayır. Milli Olimpiya komandamızın Fransanın paytaxtında keçirilən yay Olimpiya oyunlarında ilk böyük qələbəsi ürəyi Azərbaycanla döyünən hər kəsə qürur dolu xoş anlar yaşatdı.**

Müstəqil Azərbaycan idmançılarının iştirak etdikləri səkkizinci olimpiadada 8-ci qızıl medalı dünya çempionu, 4 qat Avropa çempionatının qızıl medalçısı Hidayət Heydərov qazandı. Nəzərə alsaq ki, həlledici görüş məhz cüdo ölkələrindən biri olan, özü də hələ də bu idman növü üzrə qızıl medal qazana bilməyən Fransanın yerli idmançısına qarşı idi, o zaman vəziyyətin nə qədər gərgin olduğunu təsəvvür etmək olar. Yerli azarkeşlərin öz idmançılarını qələbəyə səsləmələri tam təbii olsa da, Hidayət üçün əlavə təzyiq yaradırdı. Rəqib məkrli siyasəti ilə uzun illər Azərbaycana düşmən mövqe sərgiləyən bir ölkənin təmsilçisi olduğu üçün qar-



şılaşma prinsipial xarakter daşıyırdı. Azərbaycana, onun idmançısına xas səbir, təmkin nümayiş etdirməklə qarşılaşmanı nəzarətdə saxlayan, məqam yetişdikdə çox dəqiq, ölçülüb-biçilmiş hərəkəti ilə döyüşü qalib başa çatdıran Hidayət üstünlüyün məhz bizim tərəfimizdə olduğunu nümayiş etdirdi. Qələbənin gətirdiyi burulğan yerli publikanı bir an dondursa da, saniyələr ərzində necə deyərlər, özlərinə gəlib reallıqla barışmalı oldular. Mükafatlandırma mərasimində iştirakçıların Dövlət Himnimizi ayaq üstə, alqışlarla dinləmələri qürurverici idi.

**Azərbaycan Cüdo Federasiyasının (ACF) vitse-prezidenti Elnur Məmmədli Hidayət Heydərovun (73 kiloqram) Paris Oyunlarında çempionluğunu yüksək dəyərləndirib. O qeyd edib ki, Hidayət Olimpiya çempionu olmaqla verdiyi bütün sözlərə əməl edib, qarşısına qoyulan tapşırığı layiqincə yerinə yetirib.**

**Federasiya rəsmisi bildirib ki, Hidayətin Parisdə fransız idmançını məğlub etməsi, Azərbaycan Bayrağını qaldırıb, Dövlət Himnini səsləndirməsi ikiqat sevincə səbəb olub:**

–Xalqımızı təbrik edirəm. Hidayət ağıllı güləş nümayiş etdirdi. O, artıq Avropa, dünya və Olimpiya çempionudur. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi və Azərbaycan Cüdo Federasiyasına da minnətdarlığımı bildirirəm. Rəqibin itirəcək heç nəyi yox idi. Amma Hidayət Avropa və dünya çempionu olmaqla yanaşı, öz çəkisi üzrə dünya reytinqində ilk sıradadır. Rəqib var gücü ilə güləşirdi. Fransızlar öz təmsilçilərini yaxşı dəstəkləyirdilər. Tribunada da ona dəstəyin çox olduğu görünürdü. Amma əsas qələbədir. Hidayət də bunu bacardı.

Veteran cüdoçu bildirib ki, federasiyada idman-



çılarımız üçün hər cür şərait yaradılıb. Hidayət bütün çətinliklərin öhdəsindən gəldi və özünü yaxşı tərəfdən göstərə bildi. Çox sevindirici haldır ki, onun üzərində mənim də əziyyətim var.

Komandamız Paris Oyunlarında çıxışını davam etdirir. Dünən millimizin üzvləri bu mötəbər yarışda mübarizəni davam etdiriblər. Cüdo komandamızın daha bir titullu idmançısı, builki dünya çempionatının qalibi Zelim Tçkayev (81 kq) tatamiyə çıxıb. 1/16 finalda fransalı Umar Alfa Djalo ilə üz-üzə gələn idmançımız, təəssüf ki, onun öhdəsindən gələ bilməyib.

Azərbaycan üzgüçüsü Ramil Vəlizadə də yarışda çıxışını başa vurub. 200 metr məsafəyə batterflyay üsulu ilə üzən idmançımız təsnifat mərhələsini adlaya bilməyib. Buna onun yekun nəticəsi səbəb olub. Məsafəni 1 dəqiqə 59,77 saniyəyə qət edən üzgüçümüz 27 iştirakçı arasında 25-ci olub, bir idmançı isə yarışa qatılmayıb. Yarımfinala 16 ən yaxşı idmançı yüksəldiyi üçün Ramil mübarizəni dayandırmalı olub.

Akademik avarçəkmə üzrə Diana Dımçenko Oyunların 1/4 final mərhələsində mübarizə aparıb. O, 2000 metr məsafəyə fərdi yarışın qrup mərhələsində 6 idmançı arasında 4-cü yeri tutub. Təmsilçimiz məsafəni 7 dəqiqə 53,76 saniyəyə qət edib. Bu nəticə ilə idmançı C/D yarımfinalına vəsiqə qazanıb. 1/4 final mərhələsində ilk üç yerin sahibi A/B, digər üç olimpiyaçı C/D yarımfinalına yüksəlib. D.Dımçenko 6-12-ci yerlər uğrunda mübarizəyə qoşulacaq. A/B yarımfinalları avqustun 1-də, C/D yarımfinalları isə iyulun 31-də baş tutacaq.

Dünən, həmçinin boksçular - Nicat Hüseynov (51 kq) və Murad Allahverdiyev (80 kq) rinqə çıxıblar. Yarışa 1/16 finaldan başlayan N.Hüseynov Dominikandan olan Junior Alkantara Reyesə uduzub. M.Allahverdiyev misirli Abdelrahman Abdelcavvadla qarşılaşıb. Boksçumuz rəqibinə qalib gələrək 1/4 finala yüksəlib.

Azərbaycanın kamandan oxatanı Yaylagül Ramazanova 1/32 finalda çinli An Qixuana qalib gəlsə də, idmançımız növbəti mərhələdə – 1/16 finalda almaniyalı Mişel Kroppenə uduzaraq mübarizəni dayandırıb.

Bu gün cüdo komandamızın daha bir perspektivli üzvü, 90 kiloqram çəki dərəcəsində Elcan Hacıyev gücünü sınayacaq. Builki Avropa çempionatının qalibi, həmçinin Paris, Tbilisi "Böyük dəbilqə" turnirlərində gümüş, Qazaxıstandakı analoji yarışda isə bürünc medal qazanıb. Onun potensialı da kifayət qədər yüksək qiymətləndirilir.

Cüdoçumuz Hidayət Heydərovun Parisdə qazandığı qızıl medal yarışda çıxışını davam etdirən idmançılarımız üçün böyük motivasiyadır. Ümid edirik ki, olimpiyaçılarımız Vətənə yüksək mükafatlarla dönəcəklər.

## "Hidayətin qələbəsi bütün Azərbaycanı sevindirdi"

**Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan cüdoçusu Hidayət Heydərovun (73 kiloqram) "Paris-2024" Yay Olimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı fikirlərini bölüşüb. O, Hidayət Heydərovun qələbəsinin Azərbaycan idmanı üçün böyük uğur olduğunu bildirib. 28 yaşlı idmançının qələbə uğrunda çox əziyyət çəkdiyini deyib:**



– Hidayətin qələbəsi bütün Azərbaycanı sevindirdi. Qarşılaşma ağır keçdi. O, fransalı idmançıya qarşı əzmkar mübarizə nümayiş etdirdi, əsl xarakter və tam şəkildə bacarığını göstərə bildi. Bunun sayəsində qalib gəldi. Mən inanıram ki, onun qələbəsi bütün Azərbaycan xalqını sevindirib. Bu gün əsl bayramdır. Bu, ilk uğurumuzdur, amma ümid edirəm ki, son olmayacaq. Bütün olimpiyaçılarımızdan yaxşı nəticələr gözləyirik.

Fransızlar öz təmsilçisini yaxşı dəstəkləyirdilər. Buna baxmayaraq, onlar mükafatlandırma mərasimində Dövlət Himnimiz səslənən zaman ayaq üstə alqışladılar. Bu, doğrudan da qürurverici və unudulmaz bir an idi.

Olimpiada kimi mötəbər turnirdə sadəcə medal qazanmaq deyil, 5-6-cı yer tutmaq belə böyük uğur sayılır. Bu yarışda ümumilikdə 9 medala ümid edirəm. Fikrimcə, Parisdəki nəticələrimiz Tokiodakından daha çox olacaq. Təbii ki, istərdim mükafat sayı 9-dan da artıq olsun. Lakin hazırkı proqnozlar bunu göstərir.

## Hidayət Heydərov: "Los-Anceles-2028"də də uğurlu nəticə qazanmaq istəyirəm



**Medal kolleksiyamı tamamladım. 4 il idi ki, bu yarışa hazırlaşırdım. Bundan sonra növbəti Oyunlara hazırlaşacağam. "Los-Anceles-2028" Yay Olimpiya Oyunlarında da uğurlu nəticə qazanmaq istəyirəm. Sosial şəbəkələrdə yazılan rəyləri oxudum. Çox xoşbəxt oldum. Məni dəstəkləyən hər kəsə öz təşəkkürümü bildirirəm.**

Həm Parisdə, həm də televiziya önündə yaxınlarım görüşümü izləyirdi. Biz hər zaman qalib gələcəyik. Çünki qalib xalqın övladlarıyıq. Yaşasın Vətənimiz!

Rəqib ev sahibi olduğu üçün ona dəstək çox idi. Arenadakılar qışqırdıqca, mən də ona qışqırırdım. Bir dəfə Fransanın Monpelye şəhərində Avropa çempionu olmuşam. Yenidən fransızlar Azərbaycan Himnini ayaq üstə dinləməli olacaqlar.

## "Azərbaycan Olimpiya Evi"ndə tədbir



**Fransanın paytaxtı Parisdə XXXIII Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan Olimpiya Evi"ndə tədbir keçirilib.**

Tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibi Azər Əliyev, Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviç, AOK-un baş katibi Rafael Paqnozzi çıxış edərək ölkəmizdə idmanın inkişafından, idmançılarımızın Olimpiya Oyunlarında əldə etdiyi uğurlardan danışıblar.

Çıxışlardan sonra Rafael Paqnozzi Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə, gənclər və idman naziri Fərid Qayıbova və Azərbaycan MOK-nun baş katibi Azər Əliyevə xatirə hədiyyələri təqdim edib.

Tədbirdə Paris-2024 Yay Olimpiya Oyunlarının çempionu Hidayət Heydərov sürəkli alqışlarla qarşılanıb və xatirə şəkilləri çəkilib.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.

*Səhifəni hazırladı:*
***Leyla QURBANOVA***
***XQ***

## Triatlon yarışı təxirə salınıb



**Paris Olimpiya Oyunlarının təşkilatçıları Sena çayında suyun keyfiyyətinin qeyri-qənaətbəxş olması səbəbindən kişilər arasında triatlon yarışını təxirə salıblar.**

"World Triathlon" və "Paris-2024"ün təşkilatçıları iyulun 30-da yerli vaxtla səhər saat 8-də keçirilməli olan yarışın ertəsi gün saat 10:45-də - qadın triatlonundan dərhal sonra təşkil ediləcəyini bəyan ediblər.

Təşkilatçılar qeyd ediblər ki, hər iki yarışdan əvvəl Sena çayında suyun "World Triathlon"un standartlarına uyğun olması yoxlanılacaq.

## Taekvondoçumuz olimpiadaya Türkiyə idmançısı ilə hazırlaşır

**Azərbaycan taekvondoçusu Qaşım Maqomedov Paris Oyunlarına hazırlığın son məşqlərini keçir.**



Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, 58 kiloqram çəkidə mübarizə aparacaq lisenziyaçımız federasiyanın zalında hazırlığa qatılıb. Toplanışa bu dəfə Türkiyənin digər tanınmış taekvondoçusu Deniz Dağdelen cəlb edilib.

Klublararası Avropa çempionatı, "Trelleborg Open", "Palastine open" "Dutch Open" və "Sofia Open"in qalibi ilə hazırlıq taekvondoçumuzun Paris-2024-də daha uğurlu çıxışına hesablanıb. "Spanish Open" və "Turkish Open"in 2 dəfə qızıl medalını qazanan Dağdelenlə sınaq döyüşləri də keçirilir.

Qeyd edək ki, Maqomedov Fransa paytaxtına avqustun 2-də saat 07:00-da yollanacaq.

## Aranda yağmursuz, dağlarda yağıntı və külək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 31-də Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək.**

Cənub-qərb küləyi əsəcək, gündüz mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq, axşama doğru arabir güclənəcək. Gecə 20-24°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 754 mm civə sütunu, nisbi rütubət gecə 40-50, gündüz 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz olacaq. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-22° , gündüz 30-35°, dağlarda gecə 10-15° , gündüz 16-21° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva və institutun kollektivi institutun elmi işçisi Samid Bağırova anası

**RƏFİQƏ BAĞIROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3203
SİFARİŞ 1684
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00